# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 191 (7359)

18 oktyabr 2025-ci il.
Qiymәti 60 qәpik

## Birinci vitse-prezident Mehriban Əliyeva Roma Papası XIV Leo ilə görüşüb



3

## Xalqa xidmətin 22 illik uğur salnaməsi



2

*Prezident İlham Əliyev: "Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub"*

# Müstəqilliyimiz: milli qürur və azadlıq ruhumuzun təcəssümü



*18 Oktyabr - Müstəqilliyin Bərpası Günüdür*

7

“Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu”



4

1 milyardlıq aclar dünyasının yoxsulluqla mübarizə günü



8

Antibiotik: faydasından çox zərəri var




11

## Xəzər dənizinin ekoloji böhranı: səbəblər və nəticələr



15

## Moped sürənlər, bu xəbəri mütləq oxuyun!



16

# Xalqa xidmətin 22 illik uğur salnaməsi

***2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub.***



*Prezident İlham Əliyev: "Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub"*

Ötən 22 illik tariximiz Azərbaycanın böyük bir salnaməsini yaratmış, güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan dövlət kimi öz imicini təsdiqləmişdir. Reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat və ən əsası da xalq-iqtidar birliyi Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir. Dövlət başçısı prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində verdiyi vədlərin hamısının yerinə yetirilməsinə nail olmuşdur. Ötən iyirmi iki il aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmişdir. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə verilən hər bir vəd, qarşıya qoyulan vəzifələr yerinə yetirildi və təsadüfi deyil ki, Prezident İlham Əliyev zəfər seçkilərində 92,12 faiz səslə yenidən prezident seçkilərində qalib gəldi. Yeni dövrün başlanğıcı kimi dəyərləndirilən bu seçkilər ölkəmizin qarşısında yeni imkanlar yaradır. 30 illik torpaq həsrətinə son qoyan tarixi Zəfərimizin, həmçinin ərazi bütövlüyümüzün və suverenliyimizin müəllifi olan Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşən xalq qalib Liderinə səs verməklə bir daha təsdiqlədi ki, xalq-Prezident birliyi, həmrəyliyi sarsılmazdır.

Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə böyük inam və əminlik yaradır. Dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib.

### "XOŞ NİYYƏTİMİZ VƏ XARİCİ SİYASƏTİMİZİN ƏMƏKDAŞLIQ ÜZƏRİNDƏ QURULMASI BİZƏ BÖYÜK DOSTLAR DÜŞƏRGƏSİ QAZANDIRA BİLMİŞDİR"

Dövlətimizin kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə etdiyi uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf, məhz Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən siyasətinin nəticəsidir. Cənab Prezident müdrik qərarlarıyla xalqımızın uğur simvoluna, qurucu Liderinə çevrilib. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. "Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır", - deyə Prezident çıxışlarının birində bildirib. Cənab İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Bu gün dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan qonşu ölkələrlə müxtəlif platformalarda əməkdaşlıq əlaqələri qurararaq mövcud münasibətlərini daha da möhkəmləndirir. Bu illər ərzində beynəlxalq qurumlarla da səmərəli əməkdaşlıq əlaqələri qurması ölkəmizin qlobal imicinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin dünya miqyasındakı nüfuzunun göstəricisidir. Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi, "Bizim siyasətimiz, addımlarımız, xoş niyyətimiz və xarici siyasətimizin əməkdaşlıq üzərində qurulması bizə böyük dostlar düşərgəsi qazandıra bilmişdir".

### "BU GÜN AZƏRBAYCAN ORDUSU MÜHARİBƏ DÖVRÜNDƏ QƏHRƏMANLIQ VƏ PEŞƏKARLIQ GÖSTƏRMİŞ AZƏRBAYCAN ORDUSUNDAN DAHA DA GÜCLÜDÜR"

Ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam - intizama malik bir quruma çevrilib. Əbəs yerə deyil ki, ölkələrin hərbi gücü üzrə reytinqini tərtib edən "Global Fire Power" 2024-cü il üzrə hesabatında siyahıda Azərbaycan 145 ölkə arasında 59-cu yerdə qərarlaşıb. Bu əlbəttə ki, Azərbaycan ordusunun gücüdür. Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev çıxışlarının birində demişdir ki, müasir mütəşəkkil ordunun yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri olub. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 1993-cü ildən Ordu quruculuğuna başlamaq mümkün oldu. Bu dövrdən etibarən ölkədəki silahlı qüvvələr dövlətin tam nəzarətinə keçdi. Ulu Öndərin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək 1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün artan və qüdrətlənən gücü ilə qürurlandığımız Azərbaycan Ordusudur. Özünümüdafiə dəstələri və könüllü batalyonlar ləğv edildi və beləliklə, Ulu Öndər Heydər Əliyev vahid komandanlığa tabe olan nizami Azərbaycan Ordusunu yaratdı. Bu gün sabitlik, iqtisadi inkişaf və güclü müasir ordunun formalaşdırılması müasir Azərbaycanın əsas göstəricilərindəndir. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb olub. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır.

44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Böyük Sərkərdəlik, Liderlik bacarığına malik dövlət başçımızın rəhbərliyi ilə Milli Ordumuzun qələbəsi qaçılmaz idi. Prezident, Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi və böyük Sərkərdəliyi sayəsində torpaqlarımız işğalçılardan azad edildi. Əlbəttə ki, Azərbaycan Ordusunun gücü dövlətin qüdrətinin nümunəsidir. Silahlı Qüvvələrimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha bir missiyanı uğurla yerinə yetirdi. Azərbaycan Ordusu Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirdiyi antiterror tədbirlərini uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Təqribən, bir gün davam edən antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

### "BİZ BUNDAN SONRA BÖYÜK VƏ QÜRURLU XALQ KİMİ YAŞAYACAĞIQ"

Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılmasını hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi bizim ölkəmiz üçün yeni dövr başlayır: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq".

Bu gün Azərbaycan qalib dövlətdir. Xalq-iqtidar birliyi bizi zəfərə, qələbəyə apardı. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilir. İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar.

Azərbaycanın ötən 22 il ərzində iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olması bu və ya digər uğurlara söykənir. Azərbaycan modeli dünyada tanınır və qəbul edilir.

**Nəzakət ƏLƏDDİNQIZI**





*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşüb.*

# Birinci vitse-prezident Mehriban Əliyeva Roma Papası XIV Leo ilə görüşüb















AZƏRTAC xəbər verir ki, Roma Papası XIV Leo tərəfindən qəbul olunduğuna görə təşəkkürünü bildirən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan ilə Azərbaycan arasında son illərdə münasibətlərin, ikitərəfli əlaqələrin xeyli dərəcədə inkişaf etdiyini vurğulayıb. Birinci vitse-prezident son illər ərzində Heydər Əliyev Fondunun bərpa işlərində, həmçinin elmi araşdırmalarda, mədəni mübadilələrdə Müqəddəs Taxt-Tacla bir çox işlər gördüyünü diqqətə çatdırıb.

Birinci vitse-prezident Heydər Əliyev Fondu ilə Vatikan arasında imzalanmış sazişlərə əsasən bəzi layihələrin uğurla başa çatmasından sonra digərlərinin icrasına başlanıldığını vurğulayıb.

Mehriban Əliyeva bundan sonra da Heydər Əliyev Fondunun yeni təşəbbüslərlə çıxış edərək Müqəddəs Taxt-Tacla əməkdaşlığını genişləndirəcəyini deyib.

Görüşdə Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti, eyni zamanda, ikinci Katolik Kilsənin tikintisi ilə əlaqədar aparılan hazırlıq işləri barədə məlumat verilib.

Roma Papası XIV Leo Vatikan dövləti ilə Azərbaycan Respublikası arasında ikitərəfli əməkdaşlığın uzun tarixə malik olduğunu diqqətə çatdırıb. Roma Papası bir neçə il əvvəl Mehriban xanımın irəli sürdüyü təşəbbüslər sayəsində münasibətlərin xeyli inkişaf etdiyini deyərək, Birinci vitse-prezidentə təşəkkürünü bildirib. XIV Leo bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın da bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib.

Müqəddəs Taxt-Tacın rəhbəri Vatikanın Azərbaycanla bu layihələri davam etdirməkdə maraqlı olduğunu deyərək, ikinci Katolik Kilsənin tikintisinə ayrılmış torpaq sahəsinə görə təşəkkürlərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib. Roma Papası Heydər Əliyev Fonduna görülən işlərə görə minnətdarlığını ifadə edib. Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın rəhbərinə minnətdarlığını bildirərək, Roma Papasını Azərbaycana səfərə dəvət edib.

# "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu"













***Oktyabrın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) ev sahibliyi ilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin (DK) 44-cü və ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasları keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər Xiyabanı ziyarət olunub, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

ICAPP Daimi Komitəsinin 44-cü iclasında DK sədri Çunq Eu-yonq Komitənin 43-cü iclasından ötən dövrdəki fəaliyyətinə nəzər salaraq görülən işləri diqqətə çatdırıb və qarşılıqlı səmərəli əməkdaşlığın davam etdirilməsinin önəmini vurğulayıb. Daha sonra qarşıda duran vəzifələrə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası öz işinə başlayıb. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını YAP-ın ev sahibliyi ilə Bakı şəhərində keçirilən ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasında salamlamaqdan məmnunluğunu ifadə edib və dəvəti qəbul edərək tədbirə qatıldıqları üçün təşəkkürünü bildirib.

YAP Sədrinin müavini vurğulayıb ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində ciddi geostrateji dəyişikliklər baş verməkdədir. Onun sözlərinə görə, qlobal kataklizmlər, çoxsaylı təhdid və çağırışlar fonunda yeni dünya nizamına transformasiya məsələsi aktual müzakirə predmetinə çevrilmişdir: "Dünyada hərbi-siyasi konfrontasiyaların, humanitar böhranların, dini və etnik müstəvidə bir çox ziddiyyətlərin yaşandığı bir dönəmdə müxtəlif mədəniyyətlərin daşıyıcısı olan xalqlar arasında sabitlik və tərəqqi naminə dialoq prosesi ümumbəşəri dəyərlərin qorunması və ölkələrin təhlükəsizliyi baxımından müstəsna əhəmiyyət kəsb edir".

Tahir Budaqov qeyd edib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edən Azərbaycan ədalətli geosiyasi nizamın tərəfdarı olaraq beynəlxalq hüquq normalarına, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə olunmaması və qarşılıqlı surətdə milli maraqların nəzərə alınması kimi prinsiplərə əsaslanan müstəqil və konstruktiv siyasət həyata keçirir. YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, eyni zamanda, dünyada tolerantlıq nümunəsi kimi tanınan Azərbaycan zəngin tarixi irsi əsasında sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir, bu yolun qarşılıqlı əməkdaşlıq, inteqrasiya, sülh və təhlükəsizliyə xidmət etdiyini əməli fəaliyyəti ilə nümayiş etdirir. "Bu gün zəngin milli-mənəvi dəyərlərin daşıyıcısı və çoxəsrlik dövlətçilik ənənələrinə sahib olan Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Ölkəmizdə multikulturalizmin həm dövlət siyasətinin prioritetlərindən biri, həm də cəmiyyətin həyat tərzi olması Azərbaycanın sabitlik məkanı və inkişaf diyarı kimi davamlı uğurlarını şərtləndirir. Multikulturalizm, sivilizasiyalararası dialoq, mədəniyyətlərin inteqrasiyası ideyalarının təşviqi istiqamətində ardıcıl işlərin görülməsi – mühüm layihələrin reallaşdırılması həm ölkə daxilində tolerantlıq mühitinin güclənməsinə, həm də Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə təkan verir. Təsadüfi deyil ki, bu gün respublikamızda yaşayan müxtəlif xalqların nümayəndələri, fərqli dini və etnik mənsubiyyətə malik toplumlar Azərbaycanın inkişafına önəmli töhfələr verirlər. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı Qələbədə ölkəmizdə yaşayan bütün xalqların mühüm rolu var. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır", - deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini vurğulayıb ki, Asiya və Okeaniyada 350-dən çox siyasi partiyanı bir araya gətirən ICAPP səmərəli dialoqun genişləndirilməsi və çoxtərəfli əməkdaşlığın təşviqi üçün etibarlı platformadır. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası da təşkilatın fəal üzvü qismində qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanan konstruktiv işbirliyini dəstəkləməkdədir: "YAP indiyə qədər təşkilatın bir çox tədbirlərinə müvəffəqiyyətlə evsahibliyi etmiş, bəşəri əhəmiyyətli, qlobal xarakterli aktual mövzularda geniş fikir və təcrübə mübadiləsinin aparılmasına, siyasi partiyalar arasında dialoqun genişləndirilməsinə öz töhfələrini vermiş və ümumi məqsədlərimizə xidmət edən təşəbbüsləri ardıcıl surətdə dəstəkləmişdir. 2022-ci ildə Bakı şəhərində keçirilmiş ICAPP-ın "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransını bu baxımdan ayrıca qeyd etmək istəyirəm. "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu" mövzusuna həsr olunmuş bugünkü iclasımız isə yeni dünya nizamına transformasiya şəraitində qlobal həmrəylik axtarışında olan bəşəriyyət üçün həm siyasi, həm də mədəni kontekstdə aktual məsələlərin müzakirəsi baxımından olduqca mühüm önəm kəsb edir".

***Ardı Səh. 5***

# “Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu”














Əvvəli-Səh-4

ICAPP kimi mötəbər beynəlxalq platforma vasitəsilə müxtəlif ölkələrin siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsinin son dərəcədə önəmli olduğunu söyləyən Tahir Budaqov “Partiyalarımız arasındakı sıx təmaslar ikitərəfli əlaqələrin inkişafına təkan verməklə yanaşı, bir çox istiqamətlərdə, o cümlədən mədəniyyətlərarası dialoq kontekstində uzunmüddətli və çoxşaxəli əməkdaşlığa hədəflənmişdir. Bugünkü tədbirimizin də beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inamımı ifadə edərək hər birinizə fəaliyyətinizdə uğurlar arzulayır və diqqətinizə görə təşəkkürümü bildirirəm”, - deyə əlavə edib.

Sonra çıxış edən ICAPP Daimi Komitəsinin sədri, Koreya Respublikasının sabiq xarici işlər naziri Çunq Eu-yonq tədbirin yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Yeni Azərbaycan Partiyasına təşəkkür edib. ICAPP Daimi Komitəsinin sədri bildirib ki, mədəniyyət sadəcə keçmişi əks etdirmir, eyni zamanda, gələcəyimizi formalaşdıran dinamik qüvvədir. O, mədəni irsin qorunmasının və bu istiqamətdə fəaliyyətlərin təşviqinin cəmiyyətlərin inklüzivliyini effektiv şəkildə artıra biləcəyinə və sosial birliyi gücləndirəcəyinə əminliyini ifadə edib.

Çunq Eu-yonq UNESCO-nun mədəniyyəti milli və sosial dayanıqlılığın sütunu adlandırmasına diqqəti çəkib. O, təşkilatın 2024-cü il qlobal hesabatına istinad edərək mədəniyyətin mənsubiyyət, dialoq və ortaq məqsədi əsas götürməklə mədəni, siyasi və sosial dayanıqlılığı formalaşdırdığını deyib: “Mədəniyyət sahəsinə investisiya qoyuluşunda yaranan boşluqlar, çıxış imkanlarında bərabərsizlik və institusional dəstəyin çatışmazlığı bu sahənin sabitləşdirici roluna təhlükə yaradır. Bu, UNESCO-nun xəbərdarlıq etdiyi ciddi problemlərdəndir. Siyasətçilər olaraq biz bu məsələdə məsuliyyət daşıyırıq. Siyasi partiyalar, hökumətlər və mədəniyyət institutları arasında dialoq gücləndirilməlidir. Mədəni müxtəlifliyi demokratiyanın, barışın və dayanıqlı inkişafın təməl daşı kimi siyasət, təhsil və innovasiya sahələrinə daxil etməliyik”.

Çunq Eu-yonq ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasının əhəmiyyətinə toxunaraq tədbirin sürətlə dəyişən dünyada mədəniyyətin millətlər arasında necə mühüm bir körpü rolunu oynadığını, sülhü və qarşılıqlı hörməti təşviq etdiyini deyib. ”Biz tədbir çərçivəsində aparılan müzakirələrdə zəngin mədəni irsimizin əməkdaşlığa necə təkan verə və davamlılığı necə gücləndirə biləcəyini müzakirə edirik. Birləşmiş Millətlər Təşkilatının “Mədəniyyət-2030” çərçivə sənədinə uyğun şəkildə müxtəlif mədəniyyətlərin inteqrasiya üsullarını müəyyən etmək olduqca vacib şərt kimi önə çıxır”, – deyən Çunq Eu-yonq Asiya Mədəniyyət Şurasının yarandığı vaxtdan ICAPP-ın ən fəal platformalarından biri olmasına, mədəniyyəti sülh və həmrəyliyin hərəkətverici qüvvəsi kimi irəli aparmaq naminə səylər göstərdiyinə diqqəti çəkib. O, Bakıda baş tutan bu tədbirin əməkdaşlığı daha da dərinləşdirmək, dəyərli təcrübələri paylaşmaq, ideyaları mübadilə və yeni əməkdaşlıq yollarını müəyyən etmək üçün mühüm fürsət olduğunu bildirib.

Sonra Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin iclas iştirakçılarına müraciətini səsləndirib.

Daha sonra Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli çıxış edib. O bildirib ki, ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasının Bakıda keçirilməsi ölkəmizə göstərilən etimadın və Yeni Azərbaycan Partiyasının beynəlxalq aləmdə etibarlı tərəfdaş olmasının göstəricisidir. Onun sözlərinə görə, bu qurum regional əməkdaşlığın və mədəni dialoqun inkişafında mühüm rol oynayır.

“Müasir dövrdə siyasi partiyalar cəmiyyətlərin və dövlətlərin həyatında, eləcə də ictimai-siyasi proseslərin formalaşmasında əhəmiyyətli yer tutur” , - deyən A.Kərimli əlavə edib ki, bu gün dünyada baş verən mürəkkəb geosiyasi proseslərin fonunda daha aydın görürük ki, siyasi partiyalar yalnız daxili siyasi sistemin deyil, həm də beynəlxalq əməkdaşlığın, xalqlar arasında həmrəyliyin əsas dayaqlarından biridir.

*Ardı Səh. 6*

# “Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu”





Əvvəli-Səh-5

A.Kərimli qeyd edib ki, Azərbaycan qədim tarixə, zəngin mədəni irsə və dərin milli-mənəvi dəyərlərə malik olan bir ölkədir. Onun sözlərinə görə, Azərbaycanın mədəni irsinin və mədəni dəyərlərinin zənginliyindən, onun təsir gücündən bu gün dövlət idarəetməsində, ictimai münasibətlərdə və beynəlxalq əlaqələrdə önəmli təsir vasitəsi kimi istifadə edilir. “Mədəni dəyərlər və mədəniyyət amili Azərbaycan xalqının Ümummilli Lideri, Yeni Azərbaycan Partiyasının qurucusu, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin dövlətçilik siyasətində əsas istiqamətlərdən birini təşkil etmişdir”, - deyən nazirin sözlərinə görə, bu siyasi xətt bu gün də Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir: “Prezident İlham Əliyevin rəhbərliyi ilə mədəniyyət dövlətin beynəlxalq siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunmuşdur. Azərbaycan həm öz zəngin mədəni irsini qoruyur, həm də müasir qlobal mədəni proseslərin fəal iştirakçısına, multikulturalizmin ünvanına çevrilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Multikulturalizm bizim dövlət siyasəti olmaqla yanaşı, Azərbaycanda bir həyat tərzidir”.

Nazir deyib ki, dövlətlər və xalqlar arasında mədəni mübadilənin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd olunmalıdır: “Fond ölkə daxilində və xaricdə mədəni müxtəlifliyin təşviqi, dəyərlərimizin və irsin təbliği, həmçinin xarici ölkələrin mədəni irs nümunələrin bərpasında aktiv fəaliyyət göstərməkdədir. Vatikanda Roma katakombalarının bərpası, Parisdə Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası kimi çox sayda nümunələri qeyd etmək olar”.

Onun sözlərinə görə, qloballaşma dövründə milli kimliyin qorunması, mədəni irsin gələcək nəsillərə ötürülməsi həm də milli təhlükəsizlik məsələsidir: “Milli müxtəlifliyi qorumaq və təşviq etmək yalnız milli dövlətlərin və hökumətlərin deyil, beynəlxalq təşkilatların və dünya ictimaiyyətinin də ümumi məsuliyyətidir”.

ICAPP-ın Baş katibi, Koreya Respublikasının Monqolustandakı və Portuqaliyadakı sabiq səfiri Oh Sonq isə ICAPP Asiya Mədəniyyət Şurasının Fəaliyyət qaydalarına dəyişiklikləri və Büro üzvlüyünə namizədləri təqdim edib. YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov Asiya Mədəniyyət Şurasının sədri seçilib.

İclas ICAPP Daimi Komitəsi sədrinin müavini, Asiya Mədəniyyət Şurasının sabiq sədri, hazırda isə sədr müavini, Kamboca Milli Assambleyasının Xarici əlaqələr, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri, Kamboca Xalq Partiyasının Xarici əlaqələr komissiyası sədrinin birinci müavini Suos Yara və ICAPP Asiya Mədəniyyət Şurasının sədri, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Şahin İsmayılovun moderatorluğu ilə plenar sessiyalarla davam edib.

Sonra ICAPP Asiya Mədəniyyət Şurasının sədri Şahin İsmayılov Şuranın 4-cü iclasının yekun hesabatını təqdim edib.

Şahin İsmayılov bildirib ki, bugünkü tədbir Asiyanın mədəni potensialının yalnız keçmişə deyil, gələcəyə yönəlmiş strateji imkan olduğunu göstərdi: “Çıxışların ümumi təhlili onu deməyə əsas verir ki, mədəniyyət təkcə tarixi və irsi yaddaş deyil, həm də müasir dövrün iqtisadi və siyasi proseslərinə təsir edən vacib amildir. Bu prosesdə siyasi partiyaların rolu xüsusi vurğulandı. Onların faydalı əməkdaşlıq təşəbbüsləri gələcəkdə ortaq regional inkişaf üçün açar rolunu oynaya bilər. Siyasi partiyaların birgə fəaliyyəti, dialoqu və mədəni layihələrə dəstəyi bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Region ölkələri mədəniyyət vasitəsilə təhsil, innovasiya, diplomatiya və iqtisadi sahələrdə ortaq gələcək vizionu formalaşdırmaq niyyətindədir. Bu istiqamətdə siyasi iradə, institusional əməkdaşlıq və konkret layihələrin icrası vacibdir”.

Daha sonra Bakı Bəyənnaməsi qəbul edilib.

Bağlanış nitqi ilə çıxış edən ICAPP Daimi Komitəsinin həmsədri və xüsusi məruzəçisi, Pakistan Müsəlman Liqası Nəvazın üzvü Muşahid Hüseyn Sayed Azərbaycan ilə Pakistan arasında səmimi dostluq, qardaşlıq və çoxşaxəli əməkdaşlıq münasibətlərinin olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Bakıda keçirilən ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası qarşılıqlı fikir mübadiləsi və əməkdaşlıq üçün mühüm platformadır.

ICAPP Daimi Komitəsinin həmsədri tədbirin ICAPP çərçivəsində səmərəli işbirliyinin önəmini diqqətə çatdıraraq siyasi partiyaların mədəniyyətlərarası dialoqa mühüm töhfə verə biləcəyinə inamını ifadə edib. O bildirib ki, yeni dünya nizamına transformasiya şəraitində mədəniyyətlərin inteqrasiyası olduqca vacibdir. Tədbir Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb.

# Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Asiya Mədəniyyət Şurasının 4-cü iclasının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

***Sizi Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Asiya Mədəniyyət Şurasının “Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu” mövzusuna həsr olunmuş 4-cü iclasında ürəkdən salamlayıram.***

Asiya qitəsi zəngin mədəni irsi, tarixi müxtəlifliyi və dinamik inkişaf potensialı ilə qlobal transformasiya proseslərini irəli aparmaq üçün geniş imkanlara malikdir. Bu coğrafiyanın xalqlarını təmsil edən siyasi partiyalar yalnız milli mədəni dəyərlərin qorunmasında deyil, həm də beynəlxalq əməkdaşlıq, qarşılıqlı hörmət və sivilizasiyalararası anlaşmanın təşviqində böyük rol oynayırlar.

ICAPP Asiya Mədəniyyət Şurası qitənin mədəniyyətlərarası dialoq potensialının üzə çıxarılmasında vacib platformadır. Asiya Mədəniyyət Şurasının budəfəki iclasının mərkəzi mövzusu bəşəriyyətin ən aktual prioritetləri ilə üst-üstə düşərək yeni qlobal nizamın humanist və inklüziv əsaslar üzərində qurulmasına xidmət edir.

Azərbaycan tarix boyu müxtəlif sivilizasiyaların qovuşduğu, mədəniyyətlərin, dinlərin və ənənələrin qarşılıqlı təsir mühitində formalaşdığı unikal bir məkan olmuşdur. Çoxmillətli və çoxkonfessiyalı ölkəmizin ictimai-siyasi inkişafında bütün dinlərin və etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət, etimad və sülh şəraitində birgəyaşayışı mühüm rol oynamışdır. Multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanması Azərbaycan cəmiyyətinin sosial-mədəni əsaslarının ayrılmaz tərkib hissəsidir və dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Azərbaycan eyni zamanda beynəlxalq müstəvidə müxtəlif mədəniyyətlər arasında ahəngdar münasibətləri təşviq edir, sivilizasiyalararası dialoq zəminində davamlı olaraq bir sıra təşəbbüslər irəli sürür. Azərbaycanın ənənəvi olaraq ev sahibliyi etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyət vasitəsilə sülhün təşviqinə yönələn beynəlxalq təşəbbüsləri dəstəkləyən mühüm platformaya çevrilmişdir.

Müasir dövrdə bəşəriyyət dərin transformasiya mərhələsini yaşayır, mövcud qlobal nizam silahlı münaqişələr, ekoloji böhranlar və sosial-iqtisadi bərabərsizliklər kimi çoxşaxəli çağırışlar qarşısında sınağa çəkilir. Bu şəraitdə mədəniyyət insanları və cəmiyyətləri ali bəşəri dəyərlər ətrafında birləşdirən və sosial inteqrasiyanı təşviq edən əvəzsiz amil kimi çıxış edir. Milli ənənələrin qorunması ilə yanaşı, dialoqa və qarşılıqlı anlayışa açıq olmaq müasir beynəlxalq münasibətlərdə ortaq gələcəyin kollektiv şəkildə formalaşdırılmasını şərtləndirir. Beləliklə, mədəniyyət qlobal sabitliyə töhfə verən mühüm alətə çevrilir.

Keçən ilin noyabrında Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbiri keçirməsi ölkəmizin qlobal dialoq, əməkdaşlıq və konsensus mərkəzi kimi rolunu bir daha təsdiqlədi. İqlim dəyişikliyi ilə mübarizə bəşəriyyətin ortaq səylərini tələb etdiyi kimi, beynəlxalq sülhün, mədəni qarşılıqlı anlaşmanın və qlobal həmrəyliyin qorunması da eyni miqyasda kollektiv öhdəlik zərurətini ortaya qoyur. Hər iki çağırış ölkələri qlobal məsuliyyət və kollektiv öhdəlik prinsipləri əsasında tədbirlər görməyə sövq edir.

Əminəm ki, Şuranın ölkəmizdə təşkil edilən 4-cü iclası Asiyada və onun hüdudlarından kənarda xalqlar arasında dialoq ənənələrinin daha da möhkəmlənməsinə, eləcə də qlobal mədəni inteqrasiyaya yeni təkan verəcəkdir.

İnanıram ki, bu iclasda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar qlobal dialoqu zənginləşdirərək beynəlxalq ictimaiyyətə həmrəylik və birlik mesajını çatdıracaq, xalqlarımız və ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Sizə ən xoş diləklərimi çatdırır və tədbirin işinə uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 oktyabr 2025-ci il**

# Müstəqilliyimiz: milli qürur və azadlıq ruhumuzun təcəssümü

## 18 Oktyabr - Müstəqilliyin Bərpası Günüdür

*Azadlıq, müstəqil olmaq çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının əsrlər boyu ən böyük amalı, arzusu, mübarizə yolu olub. Elə buna görə də Ümummilli Lider Heydər Əliyev ölkəmizdə 28 may 1918-ci ildə yaradılan bütün türk-müsəlman dünyasının ilk müstəqil demokratik respublikasını yüksək qiymətləndirir, cümhuriyyət tarixini "İstiqlaliyyətimizin sübhü" adlandırırdı.*



Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin çoxəsrlik ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi idi. Xalqımızın müstəqillik əzmini nümayiş etdirən Azərbaycan Xalq Cümhuriyyəti öz varlığı ilə XX əsr dünya siyasi arenasına səs saldı. Artıq bizləri o sübhdən 107 illik zaman fasiləsi ayırır. Ötən illərdə o istiqlalın canımıza, qanımıza hopan şirinliyi bizi mübarizəyə səsləyib, xalqımıza yenidən müstəqillik bəxş edib.

"... Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq", – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 oktyabr 2021-ci ildə imzaladığı "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə mayın 28-i Müstəqillik Günü, 1991-ci ildə ikinci dəfə müstəqilliyimizi qazandığımız gün-oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi. Qanunda deyilir: "2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir".

### 34-ü deyil, 107-ni qeyd edəcəkdik

Tarixdə həmişə mübariz və qəhrəman xalqlar yaşayırlar. Həmin xalqlar isə tarix yaradır və onun səhifələrinə şərəf salnaməsi yazırlar. Belə qəhrəman xalqlardan biri də Azərbaycan xalqıdır. Azərbaycan Xalq Cümhuriyyəti bu xalqın yaratdığı tarix, onun 23 aylıq gərgin, çətin bir şəraitində fəaliyyəti isə həmin tarixin şərəf səhifələridir. O dövrün çətinlikləri – kənardan uzanan əllər, müdaxilələr, təxribatlar, təzyiqlər olmasaydı, bu gün müstəqilliyimizin bərpasının 34 ilini deyil, müstəqilliyimizi əldə etməyimizin 107 yaşını qeyd edəcəkdik.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı yaranan çətinlikləri təhlil edən Ümummilli Liderimiz deyirdi: "Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın, hökumətin öz normal fəaliyyətini davam etdirməsinə imkan verməmişdir. Rusiyadakı bolşevik hökuməti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsuli-idarəsini qurmağa cəhd göstərərək, Azərbaycanda istilaçılıq hərəkətlərinə başlamışdı. Respublikanın daxilində o cəhdləri dəstəkləyən qüvvələr azərbaycanlı olmamışlar. Eyni zamanda, Cümhuriyyətin hökumətində və onun yaratdığı parlamentdə də daxili ziddiyyətlər, çəkişmələr onun süqut etməsinə gətirib çıxarmışdır".

Tarixçi alimlər qeyd edirlər ki, XX əsrin əvvəllərində, dəqiq desək, cümhuriyyətin qurulmasından başlayaraq onun süqutunadək erməni silahlı birləşmələri Qarabağda, Naxçıvanda, Zəngəzurda dayanmadan Azərbaycan kəndlərini təhdid edirdilər. Qarabağda hər an üsyanlar qaldırırdılar. Yeri gəlmişkən, qeyd edək ki, 1919-cu ilin fevral ayında Qarabağ General-Qubernatorluğu da yaradılmışdı və Xosrov Paşa bəy Sultanov Qarabağ general-qubernatoru təyin olunmuşdu. O, Qarabağda ermənilərin avantürist planlarının qarşısının alınmasında çox mühüm işlər görürdü. Lakin erməni və rus təxribatçılarının nəyin bahasına olursa-olsun, cümhuriyyətin məhv edilməsi haqqındakı planları qarşısında bu müstəqillik davam edə bilmədi və cəmi 23 ay yaşayan türk-müsəlman dünyasının ilk demokratik respublikası düşmən qüvvələrin təsiri ilə 1920-ci ilin 27 aprelində iflasa uğradı. Xalq yenidən 70 il müstəmləkə rejimində yaşamaq məcburiyyətində qaldı. 70 ili də beləcə ötən XX əsr, ümumilikdə, tariximizin ən keşməkeşli səhifələrini təşkil edən yüzilliyin böyük bir hissəsi kimi tarixə yazıldı. 1991-ci ildə isə müstəqilliyimiz bərpa olunan respublikamızda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dalğalanmağa başladı.

### Müstəqilliyin əbədiliyinə doğru

Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə müstəqil dövlətimizin təməli möhkəmləndirildi, müstəqilliyimiz əbədilik qazandı. Ulu öndərin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Ümummilli Liderimiz tərəfindən milli dövlət strukturlarının yaradılması gündəmə gətirildi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə muxtar respublikanın Dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında bu bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi haqqında vəsatət qaldırdı. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq bayrağın Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. Azərbaycanın yeni Dövlət gerbinin hazırlanması və təsdiqi məsələsinə də 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində baxıldı. Üçrəngli milli bayrağın bərpası və qəbulu ilə yanaşı, Dövlət gerbi və Dövlət himninin qəbul edilməsi üçün müsabiqə elan olunması qərara alındı. Bu məsələləri kompleks halda həll etmək üçün Azərbaycan Respublikasının Ali Sovetinə müraciət olundu.

Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözlərinin çıxarılması və digər tarixi qərarlar da müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur. Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!" fikri indi dünya dövlətləri sırasında günbəgün mövqeyini gücləndirən müstəqil Azərbaycanın simasında bir daha öz təsdiqini tapır.

Bu gün də müstəqil Azərbaycanımız etibarlı əllərdədir. Azərbaycan xalqı çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır.

### Müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş

Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdiklərimiz canlandıqca, düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonra yaranan vəziyyətlə tanış olduqda, ona uzanan əlləri, gözügötürməyənlərin təxribatlarını göröndə isə belə bir qənaətə gəlmək olur ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.

Hər birimizə məlumdur, 1991-ci ildə müstəqilliyimizin bərpasından sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Ulu Öndərimiz o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyətimizin taleyinə bənzəyəcəkdi. Məhz Onun uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi.

### 100 ilə bərabər 34 il

Artıq müstəqilliyimizin bərpasından 34 il ötür. Ötən bu dövrdə ölkəmizdə 100 ilə bərabər işlər görülüb. 2020-ci ildə əldə etdiyimiz Qarabağ Zəfəri isə bu işlərin zirvəsi oldu. Bəli, biz Qələbə qazandıq.

Əslində 1990-cı illərin Birinci Vətən müharibəsi nə zamansa İkinci Vətən müharibəsinin olacağına şübhə yeri qoymamışdı. Xalq bir gün öz əzəli torpaqlarını geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin bərpasının ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirildiyini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə-Qarabağına, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi.

10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixində yazdığı yeni salnamə ilə tarixə düşdü. 44 gündə torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, dövlət başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu. Ölkəmizdə 43 gün davam edən müharibənin 44-cü günü qələbə bəxş etdi millətimizə. Şiddətli döyüşlər getdi Qarabağ torpaqlarında. Şəhidlər verdik, ürəyimiz parçalandı, qazilərimiz oldu. Lakin bir-birinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Füzulimiz, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız, Şuşamız, Ağdamımız, Kəlbəcərimiz, Laçınımız erməni tapdağından xilas edildi, hüriyyətinə qovuşdu. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi.

2023-cü ilin 19-20 sentyabrında isə 44 günlük Vətən müharibəsinin davamı olaraq Xankəndidə keçirilən birgünlük antiterror əməliyyatları ilə ermənilərin burada illər uzunu yaratdığı terror yuvaları tamamilə darmadağın edildi. Bununla da Azərbaycanın konstitusiya quruluşu, ərazi bütövlüyü təmin edildi. Böyük Zəfər ərazi bütövlüyümüzün bərpasını reallaşdırdı. Deməli, müstəqilliyi qorumaq, həqiqətən də onu qazanmaqdan qat-qat çətin imiş.

Təbii ki, müstəqilliyimizin yaşı artdıqca, ölkəmizin inkişafı daha da sürətlənəcək. Və gün o gün olacaq ki, müstəqilliyimizin 50, 100 illik yubileylərini qeyd edəcəyik. Həmin dövrlərdə qürurla müstəqilliyimizdən, 30 ildən sonra ərazi bütövlüyümüzü bərpa etməyimizdən, bu xalqın böyük şəxsiyyətlərindən bəhs edəcəkəyik. İstiqlaliyyətimizin sübhü olan müstəqillik tariximizin başlanğıcı hələ neçə-neçə əsrlərə öz işığını salacaq. Müstəqilliyimizin bərpası ilə mübarizliyini, əzmini, qürurunu nümayiş etdirən xalqımız isə bu müstəqilliyin işığında gələcəyə doğru iftixarla irəliləyəcək.

**Mətanət Məmmədova**

# 1 milyardlıq aclar dünyasının yoxsulluqla mübarizə günü





**Yoxsul ölkələrdə humanitar böhran yaranmasında böyük dövlətlərin siyasi və iqtisadi maraqlarını təmin edən faktorların payı, bütün digər faktorların payından çoxdur**

***Müasir dünyanın qarşılaşdığı ən böyük problemlərdən biri də yoxsulluq və aclıqdır. Təxmini hesablamalara görə, dünya əhalisinin 22 faizi- 1,5 milyarddan çox adam yoxsulluqla mübarizə aparır. Dünya əhalisinin 15 faizi, başqa sözlə 250 milyonu uşaq olmaqla 1 milyarda yaxın insan aclıqdan əziyyət çəkir. Dünyada aclıq və yoxsulluqdan hər dəqiqədə 1 ana, hər saniyədə isə 1 körpə dünyasını dəyişir. Bəşəriyyətin reallığı budur...***

Əsasən, xammal bazası olan inkişaf etməmiş ölkələrdə və təbii resurslar cəhətdən kasad ölkələrdə müşahidə olunan yoxsulluq, aclıq nədən yaranır, nəyə səbəb olur, niyə həll edilmir? Bu yazımızda bu məsələlərə aydınlıq gətirməyə çalışacağıq.

Beynəlxalq standarta görə, gəlirinin 30 faizindən çoxunu ərzağa xərcləyənlər yoxsul hesab olunur. İnkişaf etmiş ölkələrdə bu rəqəm 10-15 faiz təşkil edir, bir sıra ən yoxsul ölkələrdə isə 80 faizə çatır. Azərbaycanda son statistikalara görə əhali gəlirinin 55 faizini ərzağa xərcləyir.

Ərzaq qıtlığına səbəblər arasında təbii fəlakətlər mühüm rol oynayırsa, burada dünyada gedən siyasi proseslər, baş verən müharibələr də təsirsiz ötüşmür. Məlumdur ki, bu münaqişələrdə bəzi qlobal qüvvələrin də rolu böyükdür. Tarix boyu dünyanın iqtisadi və enerji mərkəzlərində hərbi qarşıdurmalar, iğtişaşlar baş verib. Dünyanın iri dövlətlərinin, böyük korporasiyaların müəyyən strategiyaları var. Lazım olan vaxt münaqişələri alovlandıra bilir, istədiyi vaxt da yatırda bilirlər. Elə bir sistem qurulub ki, 3-cü dünya ölkələrinin sərvətləri istismar olunub qərb ölkələrinə daşınır.

Sözügedən münaqişələrin nəticəsidir ki, istər enerji daşıyıcıları, istərsə də digər təbii ehtiyatlara malik ölkələrdə aclıq və səfalət hökm sürür. Belə bir halda dünyada ədalətli idarəetmə fəlsəfəsi meydana gəlir.

Dünyada varlılarla yoxsullar arasında uçurum getdikcə dərinləşir. "Bloomberg"in Milyarderlər İndeksinə əsasən, son 5 ildə milyarderlərin sərvətlərinin 2 dəfə və ya daha çox artdığını görürük.

"Oxfam"ın "Profiting from Pain" adlı hesabatına görə, son 2 ildə milyarderlər sərvətlərini son 20 ildə olduğu qədər artıra biliblər.

İsveçrənin "Credit Suisse" bankının Qlobal Sərvət Hesabatına əsasən, planetin ən zəngin 1%-i dünya sərvətinin 46%-nə, ən kasıb 55%-i isə 1,3%-nə sahibdir.

Yoxsulluq coğrafiyasına diqqət yetirdikdə belə bir məqam nəzərə çarpır: heç bir təbii resursu olmayan ölkələri bir kənara qoysaq, əksər belə ölkələr ya kənd təsərrüfatı, ya da hasilat sənayesi üzrə ixtisaslaşıblar və müasir texnologiyalar əldə etməyə çətinlik çəkirlər. Yoxsulluğun da bir çox hallarda təbii və süni fəlakətlərin nəticəsi olaraq ortaya çıxması bunu deməyə əsas verir. Belə bir ixtisaslaşmada məhz dünyanın inkişaf etmiş ölkələri maraqlı görünür.

3-cü dünya ölkələrinin texniki və iqtisadi inkişafının qarşısının alınması onların Qərb ölkələri üçün ucuz xammal bazası kimi qalmasının daha sərfəli olduğuna görədir. Bu ölkələr öz xamallarını özləri istehsal edib hazır məhsul kimi ixrac etsələr yoxsulluqdan qurtula bilərlər, amma əvəzində Qərb ölkələri külli miqdarda gəlirdən məhrum olacaqlar. Bu səbəbdən də hər vəchlə bu prosesə mane olmağa çalışırlar.

Ümumiyyətlə, dünyadakı sosial bərabərsizlik, yoxsulluq və aclıq qlobal kapitalizm sisteminin əseridir. Çünki adi riyaziyyat və iqtisadiyyat elmi açıq şəkildə göstərir ki, qlobal sosial ədalətin təmin olunduğu və sərvətlərin düzgün bölüşdürülməsi zamanı dünyanın resursları və bugünkü istehsal həcmi bütün bəşəriyyəti orta səviyyədə təmin etmək üçün kifayət edir.

Hesablamalara görə, dünya ölkələrinin hərbi büdcəsi 2 trilyon dollardan çoxdur. Bunun təxminən yarısı ABŞ-ın hərbi büdcəsidir. Bir afrikalı uşağın ən azı acından ölməməsi üçün isə ayda 35 dollara ehtiyac var. Dünyada aclığı aradan qaldırmaq üçün isə hərbi xərclərin 5-də 1-nin bu məqsədə sərf olunması kifayət edərdi.

Böyük dövlətlər bütün sərvəti, rifahı özündə cəmləməklə özlərinə başqa bir problem yaradırlar. Məsələn, həmin ölkələrdən kütləvi qaçqın axını gəlir ki, onlar da həmin ölkələrə əlavə yük olur. Təbii ki, bütün bunlar müəyyən qüvvələrə xidmət edir, əsasən də işçi qüvvəsinə ehtiyac olan. Lakin unudulur ki, səfalət işərisində olan bir ölkə qonşuluqda yaşayan varlı ölkə üçün təhdiddir.

Ədalətli insan cəmiyyəti qurulsa, təbii ki, dünyada aclıq və səfalət də aradan qalxar. Hazırkı ərzaq istehsalı normal istifadə olunduğu və düzgün bölüşdüyüldüyü halda 12-13 milyard adamı təmin edəcək gücdə olduğu halda dünyada 1 milyard ac var, 2 milyard insan isə yoxsulluq içində yaşayır. Hesablamalara görə, təkcə ABŞ və Böyük Britaniyada bəyənilməyib zibilliyə atılan qidalarla 1 milyard insanı aclıqdan xilas etmək olar. Dünya nemətlərinin 80 faizlik böyük hissəsini cəmi 20 faiz əhali istehlak edir, qalan 80 faiz əhali isə cəmi 20 faizi ilə dolanır. Belə olan halda humanizmdən danışmağa dəyərmi?

Hələ 80-ci illərdə Sovet alimləri hesablamışdılar ki, dünyanın potensialı ən azı 60 milyard insanı tam təmin etmək gücündədir. BMT araşdırmalarında isə 50 milyard göstərilirdi. Son araşdırmalarda bəzi tədqiqatçılar bu rəqəmin 100 milyarda çata biləcəyini deyirlər.

XXI əsrdə insanların acından ölməsi bəşəriyyətin ən böyük rəzalətidir. BMT ekspertlərinin qənaətinə görə, müəyyən proqramlar həyata keçirməklə bu problemi 20 ilə aradan qaldırmaq mümkündür. Təbii ki, əgər imperialist maraqları böyük dövlətlərə imkan versə.

20 il qabaq rəsmi rəqəmlərdə Azərbaycanda yoxsulluq səviyyəsi 50 faizə yaxın göstərilirdi. Son illərdə bu rəqəmlər yüksək templə azaldılmağa doğru davam edib və son illərdə 5 faiz civarında göstərilir. Lakin, müstəqil ekspertlərin ümumi qənaətinə görə, bu göstərici reallıqda azı 2-3 dəfə artıqdır.

Son 2-3 ildə gündəlik tələbat məhsullarının qiymətində müşahidə olunan ardıcıl bahalaşmalar aztəminatlı təbəqənin yoxsullaşmasına səbəb olur. Bunun qarşısını almaq üçün dövlət tərəfindən müəyyən addımlar atılır. Maaş və pensiyaların, sosial yardımların artırılması təklif olunur.

Qeyd edək ki, Azərbaycanda yoxsulluq həddi (yaşayış minimumu) adambaşına 285 manat götürülür. Yəni, 5 nəfərlik ailənin yoxsulluq həddində yaşamaması üçün ən pis halda 1500 manat aylıq gəlir olmalıdır. Lakin ailələrin əhəmiyyətli bir hissəsi üçün bu qədər gəlir əldə etmək çətindir. Xüsusən də, ailədə 1 nəfər işləyirsə. Ölkədə minimum əməkhaqqı 400 manat, median orta əməkhaqqı isə 600 manat civarındadır. Bu isə, kiçik bir ailəni minimum səviyyədə təmin etmək üçün kifayət deyil. Bu səbəbdən hökumət iş yerlərinin artırılmasına, sosial müdafiənin gücləndirilməsinə, maaş və pensiya artımlarına daha ciddi yanaşmalıdır.

Ünvanlı dövlət sosial yardımı ilə bərabər, aztəminatlı ailələrə peşə və ixtisas təhsili, işlə təmin olunma və s. kimi tədbirləri nəzərdə tutan sosial reabilitasiya proqramlarının həyata keçirilməsi vacibdir. Özünüməşğulluq proqramının əhatə dairəsinin və maliyyə fondunun bir neçə dəfə artırılmasına ehtiyac var.

**Elçin Bayramlı**
**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri**

ARAŞDIRMA

# "Nar" "Çoox Şanslı" lotereyasına start Verdi

Sərfəli mobil operator "Nar" ilsonunda abunəçilərinə sevinc bəxş etmək üçün onları möhtəşəm hədiyyələrlə dolu "Çoox Şanslı" lotereyasına qoşulmağa dəvət edir. SİA bildirir ki, 31 dekabra qədər davam edəcək bu xüsusi lotereya çərçivəsində "Nar" istifadəçiləri hər gün "Xiaomi Redmi Note 14 Pro" smartfonu, hər həftə "Haval H6 Ultra" avtomobili və finalda isə "Li L9 Ultra" avtomobilini qazanmaq imkanı əldə edəcəklər.

Lotereyada iştirak etmək çox sadədir – sadəcə balansınızı artırın və ya şans qazandıran "Dəqiqə+" paketlərindən birini aktivləşdirin. Hər balans artımı və ya əlavə şans qazandıran "Dəqiqə+" paketi sizə daha çox qalib olmaq şansı gətirəcək. 1 AZN-dən yuxarı artırılan balans avtomatik olaraq lotereyada iştirak hüququ verir: 1–3.99 AZN arası artırmalarda hər 1 AZN = 1 şans, 4 AZN və daha çox artırmalarda isə hər 1 AZN = 2 şans deməkdir. Abunəçilər topladıqları şansların sayını və iştirak statuslarını "Nar+" tətbiqi və nar.az veb səhifəsindəki xüsusi lotereya bölməsindən rahatlıqla izləyə bilər. Qeyd edək ki, "Çoox Şanslı" lotereyasının qalibləri təsadüfi seçimlə müəyyən ediləcək və hədiyyələr canlı yayımda elan olunacaq.



# Gəncə terroru - erməni vəhşiliyinin SÜBUTU

## *Terror nəticəsində 13 mülki şəxs, o cümlədən 2 uşaq həyatını itirdi*



44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqımızın inamı və ordumuzun gücü qüdrəti ilə əzəli torpaqlarımız işğaldan azad olundu. Bu gün Azərbaycan işğaldan azad olunan torpaqlarımızda üçrəngli bayrağımız dalğalanır və Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini sürətləndirir. Vaxtilə "Qarabağ Ermənistandır", - deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdu və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Bununla da Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinə son qoyuldu.

Azərbaycan bu müharibə dövründə erməni terroru ilə üzüzə qaldı. Bildiyimiz kimi, Azərbaycan xalqı ermənilər tərəfindən tarixi dövrlərdə soyqırıma, terrorlara məruz qalmışdır. Ermənilərin Azərbaycan torpaqlarında törətdiklər terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Tarixə diqqət etsək görərik ki, iki yüz ilə yaxın bir dövrdə təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı yeridilən soyqırımı siyasətinin acı nəticələrini yaşamışıq.

44 günlük müharibə dövründə də erməni vandallığının, terrorunun acılarını da yaşadıq. Vətən müharibəsi dövründə dinc insanlara, mülki əhaliyə qarşı etdikləri əməllər, işğaldan azad olan torpaqlarımızı tərk edərkən törətdikləri yanğınlar ermənin faşist ideologiyasının təzahürüdür. Ermənistanın ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq dünyanın nüfuzlu nəşrlərində və sosial şəbəkələrdə yer aldı. Ermənistanın beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə aldı.

Beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq humanitar hüquq, eləcə də 2020-ci ilin oktyabrın 10-da Moskvada qəbul olunmuş humanitar atəşkəsi Ermənistan kobud şəkildə pozaraq mülki insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Rusiyanın vasitəçiliyi ilə oktyabrın 10-da humanitar atəşkəs razılaşmasını da kobudcasına pozan Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni bir neçə dəfə "Elbrus" ballistik raketlərlə bombaladılar.

### "TƏCAVÜZKAR HEÇ VAXT ÖZ ÇİRKİN MƏQSƏDLƏRİNƏ NAİL OLMAYACAQ"

Oktyabrın 17-də gecə saatlarında Gəncəyə edilən növbəti qəddar hücum nəticəsində 13 mülki şəxs, o cümlədən 2 uşaq həyatını itirdi, 45-dən çox insan ağır yaralandı. Dinc əhaliyə qarşı törədilən bu amansızlıqlar müharibə cinayətidir. "Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər. Niyyət sadə və eyni zamanda, dəhşətlidir – mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq. Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil. Gəncə - qədim dövlətçiliyimizin beşiyidir. Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir! Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir. Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!" Bu fikirlər 17 oktyabr 2020-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi "Instagram" səhifəsində yer almışdır.

Gecə radələrində düşmənin törətdiyi bu vandal aktının cavabı isə dərhal verildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev oktyabrın 17-də səhər saatlarında xalqa müraciət etdi.

Dövlətimizin başçısı müraciətində düşmənə döyüş meydanında layiqli cavab verdiyimizi vurğuladı və Füzuli şəhərinin, rayonun bir sıra kəndlərinin işğaldan azad olunduğunu elan etdi. Bu, Ermənistana, onun rəhbərliyinin törətdiyi cinayətlərə ən tutarlı cavab oldu. Ardınca isə Azərbaycan Respublikası Müdafiə Nazirliyi döyüş meydanında düşmənin çoxlu sayda canlı qüvvəsinin və hərbi texnikalarının məhv edilməsi anlarını əks etdirən videogörüntüləri yaydı. Bu görüntülər də Gəncə terroru qurbanlarının qanının yerdə qalmadığını bir daha əyani şəkildə göstərmiş oldu. Gəncədə törədilən terror günü Füzulinin işğaldan azad edilməsi xəbərini xalqımız aldı.

### TƏCAVÜZKARIN AZƏRBAYCAN ORDUSU QARŞISINDA TOTAL ACİZLİYİNİN TƏZAHÜRÜ

Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi "Instagram" səhifəsində etdiyi daha bir paylaşımda isə belə yazırdı: "Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən? Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistanın hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür. Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir! Bu faciə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram. Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".




Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terrorçuluğun törətdiyi əməllərin qanlı izləri bizlərə yaxşı tanışdır. Ermənistanın insan tələfatına nail olmaq məqsədi həyata keçirdiyi terror aktları nəticəsində minlərlə günahsız insan həlak olmuşdur. Tarix boyu özgə torpaqlarına göz dikən və terrorçu əməlləri ilə qınağa çevrilən ermənilər günahsız insanların ölümünə səbəb olublar. Mülki əhalinin, xüsusilə qadınların və uşaqların, ahılların Ermənistan hərbi qüvvələrinin hədəfinə çevrilməsi onların faşist simasının təzahürüdür, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlının həyatına son qoyulub.

### BEYNƏLXALQ SƏNƏDLƏRİN MÜDDƏALARININ KOBUD ŞƏKİLDƏ POZULMASI

Terrorları törədən Ermənistanın son illərdə və 44 günlük Vətən müharibəsi dövründə törətdikləri vəhşi əməlləri faşist ideologiyasının sahibi olmalarının təsdiqidir. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edib.




Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində xalqımız misli görünməmiş faciələr yaşamışdır. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini göstərmiş olur. Mart hadisələri - Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. 1992-ci ilin Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi yazıldı. 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş vermişdir. Nəticədə xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alınmışdır. 117 nəfər əsir alınmış, 66-90 nəfər mülki şəxs isə qətlə yetirilmişdir.

Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Tariximizdə belə hadisələr kifayət qədərdir.

2011-ci il martın 8-də düşmən snayperi tərəfindən səkkiz yaşlı Fariz Arzu oğlu Bədəlov qətlə yetirildi. 2016-cı il Aprel döyüşlərində düşmənin Tərtərin Həsənqaya kəndini atəşə tutması nəticəsində 2000-ci il təvəllüdlü Kəlbəcər sakini Həsənli Turanə Kamandar qızı dünyasını dəyişdi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması nəticəsində, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular. Bu mülkü insanlara qarşı törədilən cinayətlərdir. 44 günlük Vətən müharibəsi dövründə erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanda mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılıb, infrastruktura ciddi ziyan dəyib.

Ermənistanın 30 ilə yaxın Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzdiyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində Zəfər qazandıq. İşğal altında olan torpaqlarımız düşməndən azad olundu.

***Zümrüd BAYRAMOVA***

# Zəlzələlər yerin orbitindən çıxmasına təsir edə bilər



***Dünyada baş verən müharibələr, münaqişələr və vətəndaş qarşıdurmalar ilə insanlar canlarından olur, evləri-eşikləri dağılır, şəhərlər, kənd və qəsəbələr viran qalır. Bu kimi insanlıq əleyhinə yönələn vəhşilikləri heç şübhəsiz ki, insanların özləri törədirlər. Düzdür, insanlar fərqlidir, biri öldürmək, talan etmək, torpaqlara nəzarət etmək, insanları təsir altında saxlamağa çalışır, başqa bir insan isə bir parça quru çörək qazanmaq, sakit ömür sürmək üçün fədakarlıq edir. Lakin bu halda belə insan cəlladları fağır həmcinsinə sadə, kasıb həyatını yaşamasını da çox görür.***

Taleyin işi belədir, bəzən sadə insanlar vəhşi cəlladların törətdikləri müharibələrdən, münaqişələrdən qaçaraq sakit görünən ərazilərə üz tuturlar. Ancaq bələ həmin kasıbı, dağda, daşda, dənizdə də yaxalayıb həyatına son qoyur. Çoxsaylı misallar göstərmək olar ki, minlərlə insan Asiyada, Afrikada baş verən müharibələrdən, vətəndaş qarşıdurmalarından qaçaraq başqa dövlətlərə üz tutmağa çalışıblar, lakin dənizlərdə, okeanlarda sulara qərq olublar.

Görünən ondan ibarətdir ki, kefli anlar yaşamaq üçün okeanların dibinə enib, az sonra ölüm mələyinə təslim olan milyarderlər, vəzifə mənsubları da az deyil. 2023-cü ilin avqustunda britaniyalı milyarder Həmiş Hardinq, Pakistanın ən zəngin iş adamlarından olan şahzadə Davut və onun 19 yaşlı oğlu Süleyman, "OceanGate" şirkətinin qurucusu Stokton Raş və fransız sualtı pilotu Pol Henri Narqeolet Atlantik okeanının dərinliklərinə enib, gözəl anlar yaşamaq eşqinə düşmüşdülər. Ancaq onlara ölümün şirinliyini quruda deyil, okeanın dərinliklərində dadmaq nəsibləri imiş. Beləcə milyardlarda səyahətçilərə kömək etmədi və həyatlarını itirdilər.

Bəla bununla da bitmir, bu dəfə zəlzələlər insanların həyatını məhv edir. Ancaq zəlzələlər müharibələr, münaqişələrlə müqayisədə insanlara münasibətdə ədalətli yanaşma nümayiş etdirir. Zəlzələlər baş verdisə kasıbı da, varlısı da, vəzifə mənsubu da fələyin qurduğu oyunun badına gedir. Bu dəfə pul-para, göz qamaşdıran vəzifə kreslosu insanlara yuxarıdan aşağı baxan məxluqa kömək etmir.

### Zəlzələlər nə deməkdir və necə yaranır?

Zəlzələlərin tərifi və onların yaranması ilə bağlı müxtəlif versiyalar və şərhlər mövcuddur. Ən inandırıcısı, yer qabığının dərinliklərində toplanan potensial enerjinin təsiri ilə yer səthinin anidən titrəməsinə zəlzələ deyilir. Yerin özəyi və qabığı arasındakı litosfer layları zəlzələlərin yaranmasında böyük rol oynayır. Bu zaman müxtəlif layların sürüşməsi və toqquşması zamanı yaranan gərginlik boşalması yeraltı təkanlara səbəb olur. Dünyanın ən tanınmış elm ocaqları, laboratoriyaları, nüfuzlu alimləri uzun əsrlərdir ki, zəlzələnin necə və hansı formada, nə zaman baş verəcəyini müəyyənləşdirməyə çalışsalar da, istəklərinə nail ola bilməyiblər. Belə demək olar ki, elm zəlzələnin nə zaman baş verə biləcəyini müəyyənləşdirməkdə çarəsizdir. Sadəcə ehtimallar mövcuddur. Məsələn iddia olunur ki, zəlzələdən öncə yer qabığında müxtəlif səslər və dəyişikliklər yaranır. Bunlar zəlzələ yaratmır, lakin hazırlıq işi aparır. Elmi məqalələrə istinad etməklə qeyd etmək olar ki, həssas səs cihazları ilə zəlzələdən öncə Yerin dərinliyində baş verən səsləri eşitmək mümkündür.

Zəlzələlər yaranma şəraitinə görə 3 tipə bölünür: Denudasiya, Vulkanik və Tektonik zəlzələlər. Hər bir zəlzələ tipinin özünəməxsus xüsusiyyəti mövcuddur.

Denudasiya zəlzələləri: Yeraltı suların dağıdıcı fəaliyyəti zamanı asanlıqla həll olan süxurlarda boşluqlar və ya mağaralar əmələ gəlir. Zaman keçdikcə həmin boşluqların tavan hissələri ağırlıq qüvvəsinin təsiri altında uçur və şiddətlə yerə dəyərək zəlzələni yaradır. Bunlara karst zəlzələsi də deyilir.

Vulkanik zəlzələlər: Vulkan fəaliyyətinin ən aktiv dövründəki partlayışlar zamanı onun ətrafında hiss olunan müxtəlif yeraltı təkanlardır. Bu tip zəlzələlər qüvvətli olsa da, böyük sahəyə yayılmır.

Tektonik zəlzələlər: Yer qabığında qırışıqların və çatların əmələ gəlməsi nəticəsində yaranır və böyük sahəyə yayılması ilə səciyyəvidir.

Yer daxilində zəlzələyə səbəb olmuş ilk hərəkətin baş verdiyi yerə hiposentr deyilir. Dərinlik xüsusiyyətinə görə zəlzələlər 4 qrupa bölünür.

Zəlzələnin intensivliyi əksər ölkələrdə 12 bala bölünmüş seysmik cədvəllə - Rixter şkalası ilə ölçülür. Bu cədvələ görə 1 bal-hiss olunmayan, 2 bal-çox zəif, 3 bal-zəif, 4 bal-orta, 5 bal-nisbətən güclü, 7 bal çox güclü, 8 bal-dağıdıcı, 9 bal-viranedici, 10 bal-məhvedici, 11 bal fəlakətli, 12 bal-ən fəlakətli zəlzələ sayılır.

### Dünyada baş verən ən dəhşətli zəlzələlər

Araşdırmalara əsasən demək olar ki, son 200 il ərzində minlərlə dağıdıcı günə malik zəlzələ baş verib nəticədə 35 milyona yaxın insan həyatını itirib. Ölkələrə dəyən zərərin miqdarı isə indiki qiymətlərlə 5,6 trilyon dollar hesab olunur. Ən dəhşətli zəlzələ isə 1960-cı il mayın 22-də Çilinin Valdiviya şəhərində baş verib. "Böyük Çili zəlzələsi" kimi tarixə düşən zəlzələ Rixter cədvəli ilə 9,5 bal olub və 650 minə-ə yaxın insanın ölümünə səbəb olub. Ən çox insan tələfatına səbəb olan zəlzələ isə 1556-cı il yanvarın 23-də Çinin Şensi əyalətində baş verib. 8 bal gücündə qeyd alınan zəlzələ nəticəsində 830 min insan həyatını itirib.

Zəlzələ nəticəsində okeanda yaranan sunami nəticəsində insan tələfatı İndoneziya, Malayziya, Hindistan, Tailand, Şri-Lanka və digər ada dövlətlərinin kəsişdiyi İndoneziyaya yaxınlığındakı Sumatra adasında baş verib. 26 dekabr 2004-cü ildə Hind okeanında baş vermiş sualtı zəlzələnin gücü 9,5 bal olub və nəticədə 300 minə yaxın insan ölüb. Yazının müəllifi olaraq, baş verən ürək dağlayan, faciəvi hadisədən çox təsirlənmişdim və faciə ilə bağlı "Malayziyada açılan səhər" romanını qələmə almışam. Sunami zamanı insan alveri ticarəti ilə məşğul olan cinayətkar dəstlər xalqların üzləşdikləri dəhşətli hadisələrə baxmayaraq öz biznes maraqlarından imtina etməmişlər. 80 minə yaxın uşaqları, qızları oğurlayaraq İndoneziyanın adalarına aparıb, orada onların orqanlarını çıxarıb, Asiyanın və Avropanın varlı şəxslərinə satmışlar. Qul kimi işlədilən gənclərin, cinsi istismara məruz qalan qızların sayı az olmayıb.



1923-cü ilin sentyabrın 1-də Yaponiyanın Kanto şəhərində baş verən zəlzələnin gücü 7,9 bal gücündə hesab olunur. Zəlzələ nəticəsində 142 min adam həlak olub. 380 min ev təmamilə dağılıb. Türkmənistanın paytaxtı Aşqabad şəhərində baş vermiş zəlzələ ən dəhşətli zəlzələrdən hesab olunur. 5 oktyabr 1948-ci ildə yaranan zəlzələnin gücü 7,3 bal olub və 110 mindən çox adam həyatını itirib, şəhər tamamilə dağılıb.

Zəlzələlərin tez-tez baş verdiyi Türkiyədə 1939-1999-cu illər arasında beş böyük zəlzələ olub. 1900-cü ildən bəri bu torpaqlarda baş verən 77 zəlzələdə 120 mindən çox insan həlak olub. 2023-cü il fevralın 6-da mərkəzi Kahramanmaraş olmaqla Türkiyədə baş verən 7.7 və 7.6 bal gücündəki dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirib, 107 min 213 nəfər isə müxtəlif bədən xəsarətləri alıb. Zəlzələ nəticəsində 38 min 901 bina dağılıb.

Təəssüflər olsun ki, Azərbaycanda ən həssas seymsik zonada yerləşən ərazilərdən biridir. 1667-ci ildə Şamaxıda baş verən zəlzələ zamanı 80 min insan həyatını itirib və şəhər dağılıb. Bu dağıdıcı zəlzələ bir sıra ölkələrin, o cümlədən də ABŞ Geologiya xidmətinin hazırladığı 28 böyük zəlzələ siyahısına daxil olub. Şamaxıda daha bir zəlzələ 1669-cu il 5.7 bal gücündə baş verib və nəticədə 7 min insan dünyasını dəyişib. 1859-cu il də Şamaxıda yenidən 5.9 bal gücündə zəlzələ baş verib. Zəlzələ nəticəsində Şamaxı şəhəri tamamilə dağılıb. Bu zəlzələnin gücü o qədər böyük olub ki, həmin hadisədən sonra "Şamaxı batan kimi" ifadəsi yaranıb. Bundan sonra Şamaxı quberniyasının mərkəzi Bakıya köçürülüb və quberniyanın özünün adı da yenilənib - Bakı quberniyası. Şamaxıda 1902-ci il və 1911-ci illərdə də dağıdıcı gücə malik zəlzələlər baş verib. Hər iki zəlzələ zamanı ümumilikdə 20.000 nəfərədək əhali evsiz-eşiksiz qalıb, 4 min yaşayış evi, 8 qədim məscid, 10-dan artıq mədrəsə, 40 qədim şərq hamamı, onlarla ticarət obyekti, bazar-dükan dağılaraq yerlə-yeksan olub. 1139-cu ildə Gəncədə baş verən 6.3 bal gücündə olan zəlzələdə zamanı 300 min insan həlak olub. Göy-gölün yaranması da bu zəlzələ ilə əlaqələndirilir. 2000-ci il də Bakı şəhərində 6.8 bal gücündə 2012-ci il də Zaqatala rayonunda 5.6 bal gücündə zəlzələ baş verib və dağıntılar baş verib, insan ölümləri yaşanıb.

### Zəlzələlərin qarşısını almaq olarmı və ya qabaqcadan müəyyənləşdirmək mümkündürmü?

Söz yox ki, görünməyən təhlükə hər zaman insanları narahat edib. Bu təhlükənin qarşını almaq, ən azı baş verə biləcəyi günü, saatı bilmək üçün dünyanın elm mərkəzləri çalışır, tədqitalar, araşdırmalar aparır. Lakin yuxarıda qeyd etdiyimiz kimi, hələ ki, elm bu məsələdə çarəsizdir, belə demək olar ki, gücsüzdür. Ona görə də, hər an zəlzələ baş verə bilər. Yəni heç bir dövlət zəlzələdən sığortalanmayıb. Öna görə də, insanlar ehtiyatı və hazırlıqlı olmaldır. ABŞ Geoloji Tədqiqat Mərkəzinə (USGS) görə, zəlzələ başlandığı zaman olduğunuz yerdə qalsanız və hərəkət etməsəniz, xəsarət alma ehtimalınız daha azdır. Geoloji Tədqiqat Mərkəz silkələmə zamanı yerinizdən tez qaçmamağı tövsiyə edir. Çünki araşdırmalar göstərir ki, ən çox xəsarət alma halları binada hərəkət edərkən və ya bayıra çıxmağa çalışarkən baş verir. Mütəxəssislər təhlükəsizliyinizi təmin edəcək üç sözə diqqət çəkir: "Aşağı əyilin, tutun, yapışın".

Zəlzələ zamanı binalardan, elektrik kabellərindən, çuxurlardan, yanacaq və qaz xətlərindən, borulardan uzaq olmaq da yaralanma riskini azaldır. Ağaclardan, telefon dirəklərindən və binalardan uzaq açıq ərazidə gözləmək təhlükəsiz ola bilər. Tövsiyələrin, məsləhətlərin siyahısı genişdir. Sadəcə, duanı etmək lazımdır ki, Allah heç bir xalqa, o cümlədən Azərbaycan xalqına, insanlarımıza gözlənilməz bəla, o cümlədən zəlzələlər, xəstəliklər verməsin. Dünyamız hər zaman sakit, sabit olsun. İnsanların üzü gülsün, sevincli, sağlam və xoşbəxt olsun.

**İLHAM ƏLİYEV**

# Antibiotik: faydasından çox zərəri var



***Antibiotik təyinatı səbəbindən ölüm hallarının baş verməsi statistikasında ən yüksək rəqəm 2019-cu ilə aiddir. Həmin il dünyada 1,2 milyondan çox insan antibiotiklərə qarşı müqavimət səbəbindən həyatını itirib. Bir çox hallarda ölümcül xəstəliklərlə mübarizədə əvəzsiz vasitə hesab edilən antibiotiklər həkim təyinatı olmadan kor-koranə alınar və qəbul edilərsə insan orqanizminə faydadan çox zərər verir.***





### Dövrünün xilaskarı – Penisillin

Antibiotiklərin bir çox növü var, təyinatı orqanizmdəki bakteriya infeksiyasını müalicə etməkdir. Antibiotiklərin əcdadı Penisillin 1929-cu ildə Aleksandr Fleminq tərəfindən kəşf edilib. 1940-cı illərdə kommersiya miqyasında satışa buraxılanda insanlar ona möcüzə kimi baxırdı, çünki infeksiya bir çox insanın ölümünə səbəb olmuşdu. Penisillinin kəşfi dünya təbabətini kökündən dəyişdi. Bu ilk antibiotik idi. Onsuz bir çox xəstəliklər əlacsız olardı və insan ömrünün orta uzunluğu müasir dövrdəkindən xeyli aşağı olardı. İkinci Dünya Müharibəsində milyonlarla əsgərin həyatı məhz penisillinə görə xilas edildi.

İnfeksiyanın yerinə və növünə görə fərqli antibiotik təyin edilir. Məsələn daxilə qəbulu ya damar yolu, ya ağızdan olur, eləcə də qulaq və gözə damladaraq, həmçinin krem halında dəriyə çəkilərək antibiotik qəbul etmək mümkündür.









Tərkibində 1 qram tseftrakson preparatı olan Rusiya istehsalı antibiotiklərin bir ədədi 80 qəpikdir, amma eyniadlı firma istehsalı antibiotikin içində eyni miqdarda olan ədədi ən ucuz halda 3-4 AZN-dən başlayır. 10 günlük antibiotik müalicəsi ənənəvi yolla 8 manat edirsə firma preparatları ilə bu məbləğ ən yaxşı halda 3-4 dəfə artır. İki seçim arasındakı fərq odur ki əgər xəstə ənənəvi antibiotiklə normal halda 5 günə sağalmalıdırsa firma antibiotikləri bu prosesi tezləşdirir. Xəstə düşünür ki ənənəvi dərmanın gücü çatmadı, amma firma dərmanı xəstəliyə qalib gəldi. Lakin sağalma müddətinin tezləşdirilməsi orqanizm üçün zərərlidir.

### Qızdırma zamanı antibiotik təyin edilərsə...

Antibiotikin ciddi təsirlərini diqqətdə saxlamaq, təyinatsız qəbulunun qarşısını almaq və insanları onunla bağlı məlumatlandırmaq üçün 2012-ci ildən bəri 18 noyabr tarixi antibiotik günü kimi qeyd edilir. Adi qrip və soyuqdəymədə belə istifadə etməyi adət halına çevirən insanları məlumatlandırmaq üçün antibiotiklərin insan orqanizminə verdiyi zərərlər barədə elmi konfranslar keçirilir, məqalələr hazırlanır. Antiobiotik təyinatına ehtiyac olan xəstəliklərdə düzgün istifadə edilməyən bu preparat lazımı dozada istifadə edilmədiyi təqdirdə ciddi fəsadlara yol açır.

Qızdırma zamanı antibiotiklə müalicə yolverilməzdir, amma o qızdırmaya səbəb hər hansı bir infeksiyadırsa antibiotik təyin edilə bilər. Antibiotik qəbulunu yalnız doza çərçivəsində etmək lazımdır, əks halda yüksək doza bədəndə antibiotikə müqavimət yaradaraq təsirini minimuma endirər.

Doğrudur, penisillin kəşf edildikdən illər sonra fərqli adlarda, fərqli markalarda bir çox antibiotik istehsal edildi. Tibb dünyası yeni antibiotiklər istehsal etmək məcburiyyətindədir, çünki bakteriyalar həddindən artıq ağıllıdır. Bakteriayalar özlərində antibiotiklərə qarşı müqavimət yaradırlar. Cəmiyyətdə antibiotik istifadəsi nə qədər çoxdursa müqavimət də bir o qədər artıqdır. Xüsusilə də səhv və lazımsız zamanlarda istifadə edilən antibiotik buna səbəb olur.

### Hər 3 pasiyentdən birinə təyin edilir

Ölkəmizdə hər 3 reseptdən birinə antibiotik yazılır, həkimlərin əksəriyyəti təyin etdikdə pasiyentdən indiyədək neçə doza antibiotik qəbul etdiyini soruşmur. Antibiotiklərin nə zaman, hansı xəstəlikdə, neçə doza və nə qədər müddətə istifadə edilməsi çox vacib məsələdir, əks halda fəsad yarada bilər və getdikcə antibiotikə qarşı müqavimətə səbəb ola bilər ki, bu da xəstəliklərin tüğyan eləməsinə təkan yaradar. Həkim antibiotik təyin edəndə pasiyentinə qəbul qaydalarının vacibliyini, kor-koranə qəbul edilməməsini başa salmalıdır. Eyni zamanda hər həkim antibiotik yazdığı xəstənin daha əvvəllər antibiotik qəbul edib-etməməsini öyrənməlidir.

Antibiotik təyin ediləndə öncə yoxlamaq üçün test edilməlidir, xəstəyə çox az miqdarda tətbiq edərək orqanizmə təsiri yoxlanmalıdır. Antibiotiklər sağaltdıqları qədər zərər də verə bilir.

Xüsusilə də bağırsaq mikroflorasını məhv edir, göbələk infeksiyasına səbəb olur. Allergik reaksiyalar verə bilir, qaraciyərə və böyrəyə zərər verir. Ən vacib təsiri isə orqanizmin təbii maddələr mübadiləsini pozaraq həzm sistemini alt-üst etməsidir. Lazımsız və uyğunsuz təyin edilən antibiotiklər xəstəliklə mübarizə etmir, əksinə orqanizmin antibiotiklərə müqavimətini artırır.

Hazırda dünyada təxminən 200 növ antibiotik istifadə olunur. Tətbiq edildiyi əksər hallarda antibiotik gərəksiz olur. Antibiotik təyin edilən hər 3 pasiyentdən birinin buna ehtiyacı yoxdur, antibiotik təyin edilənlərin demək olar ki, 30 faizi onu düzgün istifadə etmir. Dünyada ən çox antibiotik istehsal və istifadə edən Çində hər il 80 min insan antibiotikdən istifadə zamanı ölür.

Hər il dünyada 25 min insan antibiotiklərdən düzgün istifadə etmədiyi üçün ölür. Səhv istifadəsi bağırsaqlara, beyinə, ürəyə, böyrək və qaraciyərə pis təsir edir. Bir çox pediatr yuxarı tənəffüs yollarının infeksiyasına antibiotik təyin edir, bu Avropa ölkələrində qətiyyən belə deyil. Bizdə aptekdən reseptsiz almaq olur, amma Avropada yox.

### Həkimsiz əsla!

Hər bir xəstəliyin klinik gedişindən asılı olaraq antibiotikə ehtiyac olub-olmaması sualı ortaya çıxır və bu qərarı ancaq həkim verməlidir. Xəstəlik törədicilər müxtəlif antibiotiklərə həssas olurlar. Həssaslığı isə laborator müayinədən sonra dəqiqləşdirmək olur.Yəni gözü yumulu antibiotik təyini düzgün deyil. Virus xəstəliklərində isə ümumiyyətlə antibiotik təyin olunmur. Təəssüf ki, bir az qızdırma olan kimi valideynlər uşağa özləri antibiotik verirlər. Buna ehtiyac olmadığına görə lazımsız dərman qəbulunun fəsadları qaçılmaz olur.

Peditr Mahir Əsədov deyir ki, əgər valideyn deyirsə uşağın boğazı ağrıyır, bu qətiyyən angina anlamını vermir: “Çünki boğaz ağrısı adi soyuqdəymədən də ola bilər və bu halda antibiotikə ehtiyac yoxdur. Anginalarda isə antibiotik təyin olunur və bu qərarı yalniz həkim verir. Bəzi antibiotiklərin təyinatında yaş limiti var. Yəni bəziləri 8, bəziləri isə 14 yaşa qədər təyin olunmur. Hamilə və süd verən qadınlarda antibiotik təyinatında çox ehtiyatli olmaq lazımdı. Bu halda da qərarı yalnız həkim verir. Bu məsələdə aptek işçilərinin də günahkar olduğunu etiraf etmək lazımdır”.

Qeyd edək ki, bir qrup antibiotiklərdən ev şəraitində istifadə etmək olmaz. Ümumiyyətlə, antibiotiklərdən özbaşına istifadə qətiyyən yolverilməzdir. Həkim bizə bu halda yaranacaq fəsadları da dedi: “Birinci, allergik reaksiyalar ola bilər. Bəzən hətta “anfilaktik şok” deyilən çox təhlükəli fəsad verir. Bu hal bəzən ölümlə nəticələnir. Biz bunun acı nəticəsini ötən il anasının iynəsindən şoka girib ölən gənc oğlanda da gördük.

İkinci, disbakterioz-mədə-bağırsaq pozğunluqları yarada bilər. Bu problem son vaxtlar çox geniş yayılıb. Üçüncü, kandidozgöbələk xəstəliyi. Bu problem də “özfəaliyyətin” nəticəsində yaranır. Dürdüncü, bəzi antibiotiklər qulağa, qara ciyərə və böyrəyə toksiki təsir göstərir. Yəni bu orqanları sıradan çıxarır. Beşinci, qanda hemoliz yaradırlar, yeni qanı parçalayırlar. Bu kimi fəsadları çox sadalamaq olar. Bütün xoşagəlməz hallardan sığortalanmaq üçün həkim təyinatı olmadan antibiotklərdən istifadə etməmək məsləhətdir”.

***Lalə Mehralı***

# Zəngilan: qədim tarixdən müasir inkişafa gedən yol



Cavid ABASZADƏ,Binəqədi rayonu Emin Əliyev adına 297 nömrəli tam orta məktəbin direktoru

Azərbaycanın cənub-qərb bölgəsində yerləşən Zəngilan rayonu tarix boyu mühüm strateji və mədəni əhəmiyyətə malik olmuş, özünəməxsus coğrafiyası, təbiəti və xalqının fədakarlığı ilə seçilmişdir. 20 oktyabr 2020-ci ildə Zəngilan şəhərinin işğaldan azad edilməsi bu qədim diyarın tarixi salnaməsində yeni bir mərhələnin başlanğıcı olmuşdur. Prezident cənab İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamı ilə həmin gün "Zəngilan şəhəri günü" kimi təsis edilmişdir. Bu qərar Zəngilanın azad olunmasının dövlətçilik tariximizdəki əhəmiyyətini təsdiq edən mühüm hadisədir.

XIX əsrin əvvəllərində Qafqazın Rusiya tərəfindən işğalından sonra aparılan inzibati bölgü nəticəsində Zəngilan, Zəngəzur qəzasının tərkibində Gəncə quberniyasına daxil edilmişdi. Tarixən türk torpaqları olan bu bölgə 1920-ci il bolşevik işğalından sonra zorla Ermənistana birləşdirilmiş, lakin Zəngilan, Qubadlı və Laçın hissələri Azərbaycanın tərkibində qalmışdı.

Zəngilanın təbiəti və relyefi bu ərazini həm iqtisadi, həm də strateji baxımdan mühüm mərkəzə çevirmişdir. Rayon ərazisindən Araz, Oxçuçay, Həkəri və Bəsitçay kimi mühüm çaylar keçir. Ərazidə tikinti daşı, qara mərmər, qızıl yataqları və əhəng kimi faydalı qazıntılar mövcuddur. Rayonun iqtisadiyyatı tarixən kənd təsərrüfatı yönümlü olmuş, burada 29 kolxoz-sovxoz, 4 kooperativ və 3 kəndli-fermer təsərrüfatı fəaliyyət göstərmişdir. Zəngilan həm də dəmir yolu xətləri üzərində yerləşdiyi üçün mühüm nəqliyyat qovşağı rolunu oynamışdır.

1993-cü ilin payızında Füzuli və Cəbrayıl rayonlarının işğalından sonra Zəngilan 67 gün mühasirədə qaldı. Rayonun qəhrəman sakinləri son nəfəsinə qədər vuruşaraq, 235 şəhid və itkin verməklə Azərbaycanın müxtəlif bölgələrinə sığınmışdılar. Bu faciəvi hadisə Azərbaycan tarixində xalqın əzmkarlığının, milli birliyinin simvoluna çevrildi. İşğal dövründə erməni vandalizmi nəticəsində Zəngilanın yüzlərlə tarixi-dini abidəsi dağıdılmışdır. XVII əsrə aid İmam Hüseyn məscidi, XIV əsr Məmmədbəyli türbəsi, Bartaz Qız qalası və Şərifan abidələri kimi nadir memarlıq nümunələri məhv edilmişdir. Lakin bu abidələrin hər biri Azərbaycan mədəniyyətinin əvəzsiz hissəsi olaraq dövlət səviyyəsində bərpa edilir.

2020-ci il 27 sentyabrında başlayan Vətən müharibəsinin 24-cü günündə – 20 oktyabrda Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəngilan şəhərinin işğaldan azad olunduğunu elan etdi. Bu tarixi hadisə nəticəsində rayonun 4 qəsəbəsi və 49 kəndi azad edildi, Azərbaycan-İran sərhədi 132 kilometr uzunluğunda tam bərpa olundu.

Zəngilanın azad edilməsində xüsusi şücaət göstərmiş 6974 hərbi qulluqçu "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edildi. Bu, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşən qəhrəman övladlarına verilən ən ali dövlət təltiflərindən biridir.

Zəngilan azad olunduqdan dərhal sonra Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə "Böyük Qayıdış" proqramı çərçivəsində bərpa və quruculuq işlərinə başlanıldı. Azərbaycanın ilk "Ağıllı kənd" layihəsi məhz burada – Ağalı kəndində həyata keçirildi. Müasir enerji texnologiyalarına əsaslanan bu kənd dünyanın ən qabaqcıl ekoloji yaşayış məkanlarından biridir. Günəş panelləri, hidravlik turbinlər, bioloji su təmizləmə sistemi və yüksək sürətli GPON internet şəbəkəsi burada dayanıqlı inkişaf modelinin təməlini qoyur.

Zəngilan həm də "yaşıl enerji" konsepsiyasının tətbiq olunduğu bölgələrdəndir. Burada 2024-cü ildə açılmış "Zəngilan" və "Şayıflı" Su Elektrik Stansiyaları ekoloji baxımdan təmiz enerji təmin edir. Bu addımlar Qarabağ və Şərqi Zəngəzurun "yaşıl zona" elan edilməsinin praktiki təzahürüdür.

Zəngilan rayonu mühüm nəqliyyat qovşağı kimi formalaşmaqdadır. Horadiz-Zəngilan-Ağbənd dəmir yolu və Zəngilan-Horadiz avtomobil yolu regionun nəqliyyat əlaqələrini bərpa etməklə yanaşı, Zəngəzur dəhlizinin tərkib hissəsinə çevrilir. 2022-ci ildə istifadəyə verilmiş Zəngilan Beynəlxalq Hava Limanı isə həm iqtisadi, həm də siyasi baxımdan mühüm əhəmiyyətə malikdir. Zəngilanda kənd təsərrüfatı sahəsində "Dost Aqropark" kimi iri layihələr icra olunur. Türkiyə ilə birgə yaradılmış bu aqropark 100 milyon dollarlıq sərmayə ilə 500 nəfəri işlə təmin edir, regionun iqtisadi potensialını artırır və "Made in Qarabağ" brendinin formalaşmasına xidmət edir. Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Zəngilan şəhər məscidi bu gün həm dini mərkəz, həm də mədəni irsimizin simvoludur. XIX əsrə aid bu məscidin bərpası Azərbaycanın işğaldan azad olunmuş ərazilərində milli-mənəvi dəyərlərin bərpasına verilən önəmin bariz nümunəsidir.

Turizm sahəsində də Zəngilanın potensialı genişlənir. 2024-cü ildə açılan "Ağalı" hoteli və süni göl sahilində yaradılmış ekoturizm obyektləri bölgəni cəlbedici turizm istiqamətinə çevirir. Bu gün Zəngilan təkcə bir rayon deyil, həm də Azərbaycan xalqının qələbə rəmzidir. İşğaldan azad edilmiş bu torpaqlarda dövlətimizin həyata keçirdiyi bərpa və quruculuq işləri, sosial-iqtisadi inkişaf layihələri və müasir şəhərsalma siyasəti Azərbaycan dövlətçiliyinin qüdrətini nümayiş etdirir.

Zəngilanın yenidən dirçəlişi və bu torpaqlarda həyata keçirilən bütün bərpa-quruculuq işləri birbaşa Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasətinin və qətiyyətli rəhbərliyinin nəticəsidir. Cənab Prezidentin Zəngilana mütəmadi səfərləri, şəxsən təməlqoyma mərasimlərində iştirakı və bölgənin sosial-iqtisadi inkişafına xüsusi diqqəti bu qədim diyarın taleyində yeni bir səhifə açmışdır. Dövlət başçısının Zəngilanı "Böyük Qayıdış"ın rəmzinə çevirməsi, xalqımıza qayğı və diqqətinin təzahürü olaraq tarixə qızıl hərflərlə yazılmışdır. Zəngilanın bugünkü inkişafı xalqın Prezidentinə olan dərin etimad və minnətdarlığının təbii ifadəsidir.

Zəngilanın hər bir daşı, hər bir abidəsi tariximizin canlı yaddaşıdır. 20 oktyabr - Zəngilan şəhəri günü yalnız bir qələbənin deyil, həm də xalqın yenidən dirçəlişinin təntənəsidir. Bu torpaqların inkişafı, əhalinin qayıdışı və gələcək nəsillərin firavanlığı naminə görülən işlər Azərbaycanın gələcək yüzilliyinə uzanan qürur salnaməsidir.

*"Təhsilin keyfiyyəti cəmiyyətin sosial inkişafının əsas strateji dayağı kimi çıxış edir və bu təsir həm qısa, həm də uzunmüddətli perspektivdə özünü göstərir. Təhlil göstərir ki, təhsil keyfiyyəti yüksəldikcə cəmiyyətdə sosial bərabərlik, vətəndaş məsuliyyəti və iqtisadi dinamika güclənir.*



EKSPERT DANIŞDI

# "Sosial inkişafın dayanıqlılığı təhsilin keyfiyyəti ilə sıx bağlıdır"



Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununda qeyd olunur ki, təhsilin əsas məqsədi "cəmiyyətin sosial, iqtisadi, mədəni və mənəvi inkişafına xidmət edən bilikli, bacarıqlı və vətənpərvər şəxsiyyətin formalaşdırılmasıdır". Bu prinsip göstərir ki, dövlət səviyyəsində təhsilin keyfiyyəti sosial inkişafın ideoloji və praktiki əsası kimi qəbul olunur". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib.

O bildirib ki, son illərin statistik göstəriciləri də bu istiqamətdə müəyyən irəliləyişlərin əldə olunduğunu təsdiqləyir: "Dövlət Statistika Komitəsinin məlumatına görə, son beş ildə ali təhsilli şəxslərin payı 19 faizdən 26 faizə yüksəlib, 15-24 yaş qrupunda təhsil alanların payı isə 72 faizə çatıb. Bu göstəricilər sosial modernləşmə prosesinin artdığını və təhsil sisteminin cəmiyyətin gələcək strukturuna təsir gücünü nümayiş etdirir. Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Rəqəmsal məktəb", "SABAH qrupları", "Tələbə krediti fondu" kimi təşəbbüslər sosial bərabərliyin təmin olunması, aztəminatlı ailələrin uşaqlarının təhsilə çıxış imkanlarının genişlənməsi baxımından müsbət addım kimi dəyərləndirilir. Bu layihələr təhsilin keyfiyyət göstəricilərinin yalnız akademik biliklə deyil, həm də sosial ədalət prinsipi ilə ölçülməsinin vacibliyini ön plana çəkir.

Lakin təhlil göstərir ki, hələ də təhsilin sosial təsir mexanizmlərində ciddi uyğunsuzluqlar qalmaqdadır. Regionlar arasında təhsil imkanları baxımından bərabərlik tam təmin olunmayıb. PISA 2022 nəticələrinə əsasən, Azərbaycan şagirdlərinin təxminən 43 faizi oxu və riyaziyyat üzrə minimum səviyyəyə çatmır. Bu, sosial inkişafda bərabərsizliyin bir göstəricisidir, çünki aşağı təhsil göstəriciləri gələcəkdə sosial və iqtisadi inteqrasiyanı məhdudlaşdırır. Bu mənada təhsilin keyfiyyəti sadəcə məktəblərin infrastruktur səviyyəsi ilə deyil, müəllimlərin hazırlıq səviyyəsi, dərs proqramlarının müasirliyi və sosial ədalət prinsiplərinin qorunması ilə ölçülməlidir.

Elm və Təhsil Nazirliyi bu istiqamətdə ardıcıl və sistemli işlər aparır. Sertifikasiya prosesi, məktəb direktorlarının seçim mexanizmlərinin şəffaflaşdırılması və müəllim maaşlarının mərhələli artırılması təhsilin keyfiyyətinə və nəticə etibarilə sosial inkişafa birbaşa müsbət təsir göstərir. Nazirliyin son illərdə "Müəllimlərin peşəkar inkişafı konsepsiyası"nı qəbul etməsi, müəllimlərin pedaqoji, psixoloji və sosial kompetensiyalarını inkişaf etdirməklə sosial bərabərliyin təmin olunmasına yönəlmiş mütərəqqi siyasətdir. Bu yanaşma sosial inklüzivliyin – yəni hər bir uşağın təhsildən bərabər faydalanma imkanının – reallaşması üçün təməl baza yaradır.

Dünya təcrübəsi göstərir ki, sosial inkişafın dayanıqlılığı təhsilin keyfiyyəti ilə sıx bağlıdır. Finlandiyada təhsil bərabərliyi və pulsuz ali təhsil siyasəti nəticəsində sosial təbəqələr arasındakı fərq 30 faiz azalaraq Avropada ən aşağı səviyyəyə enib. Sinqapurda isə təhsil strategiyası innovasiya və texnoloji biliklər üzərində qurulduğu üçün sosial rifah səviyyəsi 20 il ərzində 3 dəfə yüksəlib. Bu nümunələr göstərir ki, təhsilin keyfiyyəti həm sosial rifahın artması, həm də milli birlik və tolerantlığın formalaşmasında həlledici rola malikdir. Azərbaycan da bu istiqamətdə mühüm addımlar atır. "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və "Peşə təhsili islahatları" çərçivəsində həyata keçirilən layihələr sosial adaptasiyanı və gənclərin əmək bazarına hazırlığını artırır. Nazirliyin "Yaşıl STEAM", "İnklüziv təhsil" və "Uşaqlarda yaradıcılıq potensialının inkişafı" kimi təşəbbüsləri də sosial inteqrasiya baxımından müsbət təsir yaradır və sosial bərabərliyin praktik reallaşmasına xidmət edir.

Təhsil keyfiyyətinin sosial inkişafa mənfi təsir yarada biləcəyi halları da istisna etmək olmaz. Keyfiyyətsiz tədris, biliklərin formal ölçülməsi və sosial mənşəyə görə fərqli münasibətlər cəmiyyətdə ədalətsizlik və təbəqələşmə yaradır. Bu, sosial gərginliyin artmasına və gənclərin ölkədən miqrasiyasına səbəb olur. Buna görə də gələcək mərhələdə keyfiyyət anlayışı yalnız imtahan nəticələri ilə deyil, təhsilin sosial nəticələri – vətəndaş məsuliyyəti, etik davranış, əmək vərdişləri və sosial faydalılıq meyarları ilə qiymətləndirilməlidir.

Hesab edirəm ki, təhsilin keyfiyyətinin yüksəldilməsi sosial inkişafın həm səbəbi, həm də nəticəsidir. Keyfiyyətli təhsil sosial sabitlik, iqtisadi artım, bərabər imkanlar və vətəndaş cəmiyyətinin möhkəmlənməsi üçün əsas mexanizmdir. Elm və Təhsil Nazirliyinin son illərdə həyata keçirdiyi struktur islahatları, şəffaf müəllim seçimi, inklüziv təhsil layihələri və beynəlxalq əməkdaşlıq təşəbbüsləri Azərbaycanın sosial inkişafında yeni mərhələnin başlanğıcını formalaşdırır. Bu siyasətin davamlılığı təmin olunduğu halda, ölkədə sosial kapitalın keyfiyyət göstəriciləri, əmək məhsuldarlığı və vətəndaş məsuliyyəti səviyyəsi yüksələcək, təhsil sosial transformasiyanın ən güclü vasitəsinə çevriləcək".

**Səbinə Hüseynli**

# "Varam, çünki sahibəm" dövrü

***Müasir insan artıq kim olduğunu deyil, nəyə sahib olduğunu soruşur. Cəmiyyətin əsas dəyərlər sistemi get-gedə mənəviyyatdan çox maddi göstəricilərə bağlanır. Paltar markası, telefon modeli, yaşadığı evin ölçüsü, paylaşdığı məkanlar, və hətta sərf etdiyi qəhvənin qiyməti belə insanın dəyər ölçüsünə çevrilir. Bu dəyişiklik təkcə iqtisadi sistemin nəticəsi deyil, həm də mənəvi prioritetlərin yerdəyişməsidir. İnsanın öz mənini içindən yox, vitrindən axtarmasıdır.***

Bir vaxtlar "insan dediyin vicdanla ölçülür" deyilirdi, indi isə bu meyar çox zaman "insan dediyin nə qədər qazanır" anlayışı ilə əvəz olunur. Kapitalın və istehlakın mərkəzə keçdiyi dünyada "sahib olmaq" anlayışı "olmaq" anlayışını sıxışdırır. Artıq bir çox insan üçün məqsəd dəyərləri yaşamaq deyil, onları nümayiş etdirməkdir. Hətta mənəvi anlayışlar, yəni mərhəmət, dostluq, dürüstlük kimi dəyərlər belə sosial təsdiq üçün sərgilənən davranış formalarına çevrilib.

Bu prosesdə istehlak sadəcə iqtisadi akt deyil, mənəvi və sosial kimliyin formalaşmasında əsas faktora çevrilib. İnsan almaqla özünü tam hiss edir, satmaqla varlığını sübut edir. Amma paradoks ondadır ki, bu maddi artım mənəvi boşluğu dərinləşdirir. Sahibləndikcə insanın içindəki mənəvi hisslər azalır, çünki sahib olmaq ehtirası heç vaxt doymaq bilmir.

Eyni ilə cəmiyyətin kollektiv şüurunda da "dəyər" anlayışı yavaş-yavaş dəyişir. Vicdan yerini statusa, sadəlik yerini təmtərağa, mənəvi rahatlıq isə maddi rahatlığa verir. İnsanlar artıq xoşbəxtliyi təcrübədə deyil, alış-verişdə axtarır. Dəyərlər tədricən ölçüyə çevrilir, hər şeyin bir qiyməti var amma bəzən heç birinin mənası yoxdur. Bu, təkcə fərdi problem deyil, sosial sistemin, təhsil tərzinin, mediada formalaşan simvolların və reklamların birgə yaratdığı mənəvi eroziyadır. Mədəniyyət, bir zamanlar mənanı axtararkən, indi markanı axtarır. İnsanlar artıq "nə düşünürsən?" sualına yox, "nə geyinirsən?" sualına cavab verir.

Məhz bu mənzərə "Varam, çünki sahibəm" dövrünün portretidir. Burada varlıq, mənəviyyat və mənlik anlayışları bir-birindən ayrılmış haldadır. Bu məqalənin məqsədi isə bu ayrılığın köklərini araşdırmaq, dəyərlərin bu şəkildə dəyişməsinə gətirən mədəni, sosial və psixoloji mexanizmləri anlamaqdır.

İnsan tarixində elə bir dövr olub ki, dəyər yaratmaq yaşamağın əsas məqsədi sayılırdı. O vaxtlar insan sahib olduğu şeylərlə deyil, yaratdığı dəyərlə ölçülürdü. Lakin sənaye inqilabından sonra bu münasibət tədricən dəyişdi. İstehsalın artması, texnologiyanın inkişafı və kütləvi bazarın yaranması ilə birlikdə "istehlakçı" anlayışı meydana gəldi. İnsan artıq "yaradan subyekt" deyil, "istehlak edən obyekt" kimi formalaşmağa başladı.

Bu dəyişiklik sadəcə iqtisadi proses deyildi, mədəniyyətin dərin qatlarına nüfuz etdi. XIX əsrdən etibarən Qərb cəmiyyətlərində "maddi bolluq xoşbəxtlik gətirər" ideyası formalaşdı. Reklam sənayesi isə bu ideyanı bir növ "yeni din" halına çevirdi. Artıq insanın kimliyi onun dəyərlərinə görə deyil, alqı-satqı gücünə görə müəyyən olunurdu. XX əsrin ortalarından başlayaraq, xüsusən də Amerika mədəniyyəti ilə yayılan "consumerism" (istehlakçılıq) bütün dünyaya sirayət etdi. Bu ideologiya insan psixologiyasına çox incə şəkildə işləyirdi. "Sahib ol, çünki dəyərlisən" deyil, "sahib ol ki, dəyərli görünəsən". Beləcə, istehlak, mənəviyyatın yeni formasına çevrildi və sadəlik yoxsulluq, təmtəraq isə müvəffəqiyyət rəmzi kimi qəbul olundu.

Reklam mədəniyyəti burada ən güclü ideoloji silah rolunu oynadı. Hər bir reklam sadəcə məhsul satmır, həm də "dəyər" satırdı. Yeni bir ətir, telefon, geyim və ya avtomobil artıq funksional əşya deyil, sosial statusun göstəricisinə çevrilirdi. İnsanlar tədricən məhsullarla öz şəxsiyyətlərini qurmağa başladılar. Artıq "mən kiməm?" sualına cavab çox vaxt "nəyə sahibəm?" cümləsi ilə verilir. Bu prosesin mədəni nəticəsi o oldu ki, mənəvi dəyərlər hansı ki, mərhəmət, təvazökarlıq, sədaqət, sadəlik kimi anlayışlar sosial prestij sistemindən kənara çıxdı. Onların yerini "görünmək", "bəyəndirmək", "maraqlı olmaq" kimi yeni davranış meyarları aldı. Bu meyarlar isə mənanı istehlakla əvəz etdi.

Tarixən, insanın dəyərlərlə münasibəti əşyaya yönəldikcə, mənəviyyatla məsafə də artdı. Cəmiyyət "sahib olmaq" mədəniyyətini mənimsədikcə, "olmaq" mədəniyyəti arxa plana keçdi. Əslində bu, mənəvi bir tənəzzülün sosial tarixidir, dəyərlərin bazar münasibətləri içində tədricən qiymətə çevrilməsi. İstehlakçılığın bu tarixi prosesi, bugünkü insanın həyat tərzində hələ də davam edir. Əşyalar dəyişib, amma dəyərlərin istiqaməti eyni qalıb. Maddi artım mənəvi boşluğu doldura bilmir, sadəcə onu daha çox gizlədir.

İnsanın maddi dəyərlərə bu qədər bağlanması sadəcə sosial təsir deyil, həm də psixoloji ehtiyacların yanlış istiqamətdə ödənilməsidir. İnsan varlığını dəyərləndirmək, özünü güvəndə və dəyərli hiss etmək istəyir. Ancaq bu dəyər hissi daxildən yox, xaricdən alınanda (yəni, əşya, status və ya maddi göstəricilərlə ölçüləndə) şəxsiyyətin dərinliyində boşluq yaranır. Bu boşluq bir çox hallarda özünüqiymətləndirmə problemi ilə əlaqəlidir. Psixoloji araşdırmalar göstərir ki, dəyərlərini maddi obyektlər üzərində quran insanlar daha çox narahatlıq, müqayisə və qeyri-məmnunluq hissi yaşayırlar. Çünki hər zaman "daha yaxşısı" mövcuddur və bu "daha çox" arzusu insan psixikasını davamlı narahatlıq vəziyyətində saxlayır.

Sahib olmaq, ilk baxışda, güc hissi verir. Amma bu güc müvəqqətidir. Yeni bir şey əldə edildikdə yaranan sevinc, çox keçmədən tükənir. Bu, psixologiyada hedonik adaptasiya adlanır. İnsan xoşbəxtliyi tez "normal" hal kimi qəbul edir və daha artıq stimul axtarır. Beləliklə, istehlak sonsuz bir dövrəyə çevrilir - almaq, doymaq, darıxmaq, yenidən almaq. Burada da bir paradoks yaranır ki, insan özünü təmin etdikcə daha çox boşalır. Çünki dəyər hissi özündən gəlmədiyi üçün onu qorumaq üçün daim yeni obyektlərə sığınmaq ehtiyacı yaranır. İnsan "əşyaların içində" öz "mən"ini tapmaq istəyir, amma nəticədə həmin əşyaların "mülkiyyəti" altına düşür.




## Maddi dəyərlərin mənəviyyatı əvəz etməsi

Bu, həm də sosial müqayisə mexanizmi ilə bağlıdır. Müasir dövrdə fərd özünü artıq daxili keyfiyyətlərlə deyil, başqalarının həyat standartları ilə ölçür. Sosial media və reklamlar bu psixoloji təzyiqi gücləndirir. Başqasının malik olduğu hər şey, sanki, mənim çatışmazlığım kimi görünür. "Məndə niyə yoxdur?" sualı "mən niyə dəyərsizəm?" duyğusuna çevrilir.

Bu vəziyyətdə insanın kimliyi yavaş-yavaş öz mərkəzindən uzaqlaşır. O, artıq "mən kiməm?" sualına cavab axtarmır və onun yerinə "mən necə görünürəm?" sualını verir. Daxili sükunət və mənəvi sabitlik əvəz olunur davamlı özünü təqdim etmə və təsdiqlətmə ehtiyacı ilə. Maddi obyektlər isə bu təsdiqin rəmzi olur. Telefon, geyim, avtomobil, ev, sanki, "mən varam" deyən səssiz sübutlara çevrilir. Lakin insanın ruhani tərəfi bu yalançı dəyərlərlə heç vaxt tam qidalanmır. Çünki insan mahiyyətcə mənaya, əlaqəyə, məqsədə ehtiyac duyan varlıqdır. Sahiblənmək bu ehtiyacı yalnız qısa müddətə susdura bilir. Uzunmüddətli psixoloji rahatlıq isə mənəvi zəmin tələb edir (dəyərlər, sevgi, yaradıcılıq, paylaşma kimi duyğularla).

Məsələnin nəticəsi göstərir ki, insanın maddi obyektlərə olan bu dərin bağlılığı, əslində, onun daxili mənəvi boşluğunun və ruhi aclığının bariz göstəricisidir. İnsan ruhən doyum tapmadıqca, maddi sərvətlər və obyektlərə olan arzu daim artır, lakin paradoksal olaraq, maddi artım onun mənəvi dünyasını daha da sıxışdırır və boğur. Bu qarşıdurma, müasir insanın daxili gərginliyinin, emosional yorğunluğunun və psixoloji narahatlığının kökünü təşkil edir, onu yalnız səthi razılıqlarla təmin etməyə çalışır, lakin həqiqi ruhani doyuma çatdırmır.

Digər tərəfdən, cəmiyyətin maddi dəyərlər üzərində qurulması, təkcə fərdin psixologiyasına deyil, insanların bir-biri ilə münasibətlərinə də sirayət edir. Əlaqələr səmimiyyətdən çox fayda və status üzərində formalaşır. "Sevilmək" anlayışı yerini "diqqət çəkmək" istəyinə verir, "dostluq" isə çox zaman sosial faydalılıq mübadiləsinə çevrilir. İnsanlar bir-birinə yaxın görünürlər, amma əslində aralarındakı məsafə mənəvi baxımdan heç vaxt bu qədər uzaq olmamışdı.

Maddi dəyərlərin önə keçdiyi mühitdə insan münasibətləri alqı-satqı modelinə bənzəyir. İstər dostluq, istər sevgi, istər iş münasibətləri olsun, hər şeyin arxasında "mən bundan nə qazanıram?" sualı gizlənir. Cəmiyyətin bu səssiz dəyişimi onu fərdlərdən ibarət topluma yox, maraqlardan ibarət sistemə çevirir. Mənəviyyatın ölçüsü getdikcə azalır, çünki dəyər anlayışı artıq səmimiyyətlə deyil, görünürlük və imkanla müəyyən olunur. Bu prosesin nəticəsi, emosional uzaqlaşma və etimad böhranıdır. İnsanlar bir-birinə inanmaqda çətinlik çəkir, çünki qarşısındakının səmimiyyətinə yox, məqsədinə fokuslanır. "Mənim üçünmü burdasan, yoxsa nəyəsə görəmi?" sualı müasir münasibətlərin görünməz fonuna çevrilib.

Sosial strukturlar da bu dəyişiklikdən yan keçmir. Təhsil, mədəniyyət, incəsənət kimi sahələrdə belə dəyərlərin yerini rəqəmlər tutur. Uşaqlara dəyərləri yaşamaq yox, nəticə əldə etmək öyrədilir. Elm dərin düşünməkdən çox, karyera qurmaq vasitəsinə çevrilir. Beləcə, maddi uğur mədəniyyəti, insanın mənəvi inkişafını kölgədə qoyur. Əlavə olaraq, insanlar bir-birini anlayaraq deyil, müqayisə edərək tanıyır. "Nə qədər qazanır?", "harada yaşayır?", "necə geyinir?" kimi suallar, "kimdir?", "nə düşünür?", "nəyə inanır?" kimi sualların yerini tutur. Cəmiyyətin bu səssiz təkamülü, mənəviyyatın tənəzzülünün sosial formasını yaradır. Bütün bunlar göstərir ki, insanın dəyərlərlə əlaqəsi fərdi seçimdən çıxıb, sosial davranış koduna çevrilib. Əgər bir cəmiyyətin dəyərləri maddi əsaslara söykənirsə, o zaman o cəmiyyət mənəvi baxımdan zəngin ola bilməz. Çünki ruhu olmayan sistemdə rifah belə suni görünür. Müasir dünyada maddi dəyərlərin mənəvi dəyərlərin yerini tutması yalnız fərdin problemi deyil, bütün cəmiyyətin əks-sədasıdır. İnsan gündəlik həyatda sahib olduğu əşyalarla özünü ölçür, amma ruhu doyum tapmadıqca, bu əşyalar heç vaxt yetərli olmur. Belə bir vəziyyətdə sual yaranır: bəs nə etməliyik?

Cavab sadə, amma tətbiqi çətindir. İlk addım özümüzdən başlamalıyıq. Dəyərlərimizi, məqsədlərimizi və daxili ehtiyaclarımızı anlamaq lazımdır. "Mən kiməm?" sualına cavab tapmaq üçün artıq televizor ekranı, sosial media vitrini və ya digər insanların gözündəki imic deyil, daxili şüur və vicdan ölçü götürülməlidir. İnsan yaradıcılığı, empatiyası və əlaqələri ilə dolduqca, maddi sahiblik arzusu artıq təkcə yük kimi görünür.

Amma fərd yalnızlıqda bu mübarizəni apara bilməz. Cəmiyyətin də rolu böyükdür. Təhsil sistemi yalnız bilik verməklə kifayətlənməməli, uşaqlara mənəvi zənginliyi öyrətməlidir. Media və reklam isə təkcə məhsul satmaqdan daha çox, insanın ruhunu qidalandıran dəyərləri vurğulamalıdır. Sosial normalar dəyişməlidir, uğur yalnız sahib olmaqla ölçülməməli, paylaşmaqla, yaratmaqla və mərhəmətlə də qiymətləndirilməlidir. Gündəlik həyatda hər kəs öz nümunəsi ilə cəmiyyətə mesaj verə bilər. Sadə bir davranış (mərhəmət göstərmək, yardım əlini uzatmaq, təvazökar olmaq) təkcə fərdi xoşbəxtlik yaratmır, həm də sosial toxuma ruhani zənginlik qatır. Minimalizm və səmimi münasibətlər prinsipləri ilə yaşamaq, maddi artıma deyil, mənəvi doyuma diqqət yetirmək hər birimizin əlindədir.

Əsl dəyişiklik isə yalnız fərdi şüurun yüksəlməsi ilə baş vermir, sosial strukturun da bu dəyərləri dəstəkləməsi vacibdir. İnsanları yalnız maddi nailiyyətləri ilə qiymətləndirməyən, onları yaradıcılığı, empatiyası və vicdanı ilə görən bir cəmiyyət mümkündür. Və unutmayaq ki, "Varam, çünki sahibəm" dövrünü bitirmək üçün əvvəlcə "olmaq" mədəniyyətini bərpa etməliyik. Bu yolda hər bir addım, hər bir seçim əhəmiyyətlidir. Hər dəfə bir insan mənəvi dəyərinə üstünlük verdikcə, cəmiyyət də bir az daha sağlam və ruhani olur. Maddi çoxluq insanı doyura bilməz, amma mənəvi zənginlik onu tam edə bilər

***Nigar Şahverdiyeva***

# Ənənədən müasirliyə: “40 çıxdı” mərasimlərinin dəyişən mənzərəsi

***Azərbaycan xalqının qədim inanclar sistemi və ailə dəyərləri içərisində “40 çıxdı” mərasimi xüsusi yer tutur. Bu adət yeni doğulan körpənin və ananın doğuşdan sonrakı ilk 40 günlük dövrünü əhatə edir. Tarixən bu mərasim həm gigiyenik, həm də mənəvi baxımdan mühüm hesab olunub. Ana və körpənin bədəninin təmizlənməsi, mənəvi baxımdan “yeni həyata qədəm qoyması” kimi yozulan bu mərasimdə ailə və yaxın qohumlar bir araya gələrək yeni həyatın başlanğıcını qeyd ediblər.***



Lakin zaman keçdikcə bu ənənə də cəmiyyətin sosial və mədəni dəyişiklikləri ilə ayaqlaşmağa başlayıb. Müasir dövrdə “40 çıxdı” mərasimi artıq sadəcə inancla yox, həm də sosial bir hadisə kimi qəbul olunur. Geyimlər, hədiyyələr, dekorasiyalar və sosial şəbəkələrdə paylaşımlar bu mərasimi yeni məzmunla zənginləşdirib. Bununla belə, mərasimin əsas mahiyyəti – ana və körpəyə diqqət, sevgi və qayğı göstərmək – dəyişməz olaraq qalır. S A mövzu ilə bağlı araşdırma aparıb.



### “40 çıxdı” mərasiminə önəm verməyənlər: ənənədən uzaqlaşma, yoxsa həyat tərzinin dəyişməsi?

Müasir dövrdə bir çox ailələr “40 çıxdı” mərasiminə əvvəlki nəsillər qədər önəm vermir. Bu hal əsasən şəhər mühitində yaşayan gənc ailələrdə daha çox müşahidə olunur. Bəzi valideynlər bu mərasimi artıq köhnəlmiş ənənə kimi dəyərləndirir, bəziləri isə onu tibbi baxımdan zəruri hesab etmir. Onların fikrincə, uşağın və ananın sağlamlığını qorumaq üçün əsas şərt gigiyena və tibbi nəzarətdir, adət və inanclar isə ikinci plandadır.

Digər tərəfdən, bu ənənəyə önəm verməməyin səbəbləri arasında zamana çatmamaq, maddi imkanların məhdudluğu və urbanizasiya kimi faktorlar da mühüm rol oynayır. Şəhər həyatının sürətli ritmi, kiçik ailə modeli və sosial çevrələrin daralması nəticəsində bu cür mərasimlər əvvəlki kollektiv xarakterini itirir.

Bununla belə, “40 çıxdı” mərasimindən imtina edənlər də çox vaxt onun əsas mahiyyətini – ana və körpənin qayğıya, diqqətə və istirahətə ehtiyacını – özlərinə uyğun şəkildə qorumağa çalışırlar. Yəni bəzən bu ənənənin formal tərəfi aradan qalxsa da, mənəvi dəyəri ailə münasibətlərində yaşamağa davam edir.

Sosioloqların fikrincə, belə dəyişikliklər ənənələrin yox olması deyil, sadəcə onların müasir həyat tərzinə uyğunlaşmasıdır. Əsas məsələ, ailə və cəmiyyətin körpənin doğuluşunu sevinc və birlik rəmzi kimi yaşatmağa davam etməsidir.

“40 çıxdı” dövrü həm körpə, həm də ana üçün həssas bərpa mərhələsi sayılır. Bu müddətdə bədən və immun sistem hələ tam gücünə qayıtmadığı üçün bəzi məhdudiyyətlərə riayət etmək vacibdir. Gəlin elmi və ənənəvi baxımdan baxaq:

### Tibbi baxımdan: 40 günlük dövrdə ana və körpəyə olmaz

Soyuq və küləkli havada uzun müddət qalmaq – həm ana, həm də körpə üçün immun sistem zəif olduğundan, soyuqlama və infeksiya riski artır.

Ağır fiziki işlər və gərginlik – doğuşdan sonra orqanizm zəiflədiyi üçün bel, qarın və çanaq əzələlərinə yük düşür. Bu da bərpa prosesini ləngidir.

Soyuq su ilə yuyunmaq və ayaqları soyuqda saxlamaq – infeksiyaya və iltihabi proseslərə səbəb ola bilər.

Stress və yuxusuzluq – ana südünün azalmasına, depressiyaya və orqanizmin zəifləməsinə gətirib çıxara bilər.

Körpəyə kənar şəxslərin yaxınlaşması və öpməsi – yeni doğulmuşun immun sistemi hələ formalaşmadığı üçün mikroblara qarşı müdafiəsi az olur.

Qidalanmada kəskin və qaz yaradan yeməklər (soğan, sarımsaq, kələm, paxlalılar) – süd vasitəsilə körpədə köp və narahatlıq yarada bilər.

Kofeinli içkilər və qazlı məhsullar – həm ananın yuxusuna, həm də körpənin sinir sisteminə mənfi təsir göstərə bilər.

### Ənənəvi baxımdan: xalq inanclarına görə olmaz

Ana 40 gün tək qalmaz – pis enerjidən və qorxudan qorunmaq üçün yanında bir böyüyün olması vacib sayılır.

Körpənin üstünə yad adam baxmaz və toxunmaz – “göz dəyməsin” inancı ilə əlaqələndirilir.

Ana və uşaq axşam çölə çıxmaz – soyuq, pis ruh və mənfi təsirlərdən qorunmaq məqsədi daşıyır.

Ana dırnaq və saç kəsməz – bədənin zəif dövründə “can itkisi” sayıldığı üçün bu əməl 40 gün tamam olduqdan sonra edilir.

Evə yad adamların tez-tez gəlməsi məsləhət görülmür – sakitlik və enerji balansı qorunur.

“40 çıxdı” dövrü — həm tibbi, həm də psixoloji baxımdan ana və körpənin qorunma, bərpa və uyğunlaşma mərhələsidir.

Ənənələr bu qayğı prosesinə simvolik və mənəvi məna qatır, tibbi qaydalar isə sağlam bərpanı təmin edir. Hər iki yanaşma bir məqsədə xidmət edir: sağlam ana, sağlam körpə və xoşbəxt ailə.

30–40 günlük xüsusi qayğı dövrü dünyanın bir çox mədəniyyətində mövcuddur. Bu dövrün məqsədi ana və körpənin bərpası, yeni doğulanın və ananın “kənar” gözlərdən, ənənəvi pis təsirlərdən qorunması, həmçinin ailə içində rol və münasibətlərin tənzimlənməsidir.

Dünyada oxşar praktikalara nümunələr: Latın Amerikası — la cuarentena (təxminən 40 gün), Hindistan/Pakistan — jaapa/sawa mahina (40 günə yaxın), İran — chilla (40 gün), Çin — zut yui zi (“sitting the month”, 28–42 gün və ya daha çox). Hər məkanda müddət, yemək, ziyarət məhdudiyyətləri fərqli formalar alır.

### Azərbaycanda “40 çıxdı” mərasimi — ənənəvi praktika

Əsas elementlər (müxtəlif bölgələrdə rast gəlinənlər):

Mərasim adətən körpənin doğumundan 40 gün sonra keçirilir. Bu gün körpənin “qırxı” çıxarılır — simvolik təmizlik və qorunma ritualları icra olunur.

Praktikalar arasında: uşağın başından və ya bədənindən müəyyən məbləğdə tüklərin, saçların götürülməsi qaba (stəkana) yumurta qoyub 40 gün saxlamaq və sonra müəyyən mərasimlə onu atmaq, dua və ayə oxunması, bəzən qorxudan və “göz vurmadan” qorunmaq üçün xüsusi amuletlərdən istifadə.

Mərasimin əhatə etdiyi sosial funksiya: ailənin və qonşuluğun uşağı görməsi (və “göz qoyma” kimi inanclara qarşı tədbirlər görməsi), körpə üçün kirvə (xristian-islami və ya yerli mərasimlərdə iştirak edən qohum) müəyyən edilməsi, hədiyyələr və rəmzi paylamalar.

Regional fərqlər: Qarabağ, Naxçıvan, Muğan və müxtəlif etnoqrafik bölgələrdə mərasim detallarında fərqlər var — məsələn, hansı duaların oxunması, hansı “qoruyucu” obyektlərin tətbiqi və mərasimin sosial strukturu dəyişir. Azərbaycan folklor və etnoqrafik mənbələri bu müxtəlifliyi sənədləşdirib.

### Adətin dini və mədəni əsasları

İslam və bəzi yerli inanclarda doğum sonrası müəyyən “təmizlik” və “müqəddəslik” konseptləri mövcuddur. Bir sıra müsəlman icmalarda postnatal təcrid və 40 gün içində bəzi dini xidmətlərin məhdudlaşdırılması ənənəsi qeyd olunur. Bununla belə, Azərbaycandakı “qırx” mərasimləri çox vaxt həm islam təsirinə, həm də çoxşaxəli yerli inanclara (amuletyönümlü qorunma, xalq təbabəti) bağlı elementlər daşıyır.

Sağlamlıq, təhlükəsizlik və müasir dəyişikliklər

Məcburi tibbi zərurətlər: Müasir tibb baxımından 40 dövrü ana və körpənin tibbi nəzarətinin kritik olduğu dövrdür (ana bərpası, südvermə dəstəyi, yeni doğulanda peyvənd və skrininqlər). Ənənəvi mərasimlər bu tibbi tədbirləri əvəz etməməlidir.

Müasir sosial trendlər: Şəhərləşmə, tibb maarifləndirilməsi, qohumların uzaqda yaşaması və yeni valideynlərin iş yükü səbəbindən ənənəvi mərasimlərin forması dəyişir: kiçik ailə dairəsində, xəstəxana şəraitində və ya sadəcə simvolik şəkildə icra olunur. Bu da mərasimin funksiyalarının — sosial dəstək, bərpa dövrünün təminatı — başqa formalara çevrilməsi deməkdir.

Müsbət və mənfi tərəflər — praktik baxış

Müsbətlər

### Ana üçün istirahət və ailə dəstəyi

Sosial rituallar vasitəsilə körpənin və ailənin icmaya təqdimatı, sosial tanınma.

Risklər / diqqət yetiriləsi məqamlar

Əgər ənənə tibbi məsləhətlərə zidd davranışlara (məsələn, kritik tibbi müayinələrin təxirə salınması, qeyri-sanitariya praktikaları) gətirirsə, bu təhlükə yarada bilər.

“Göz vurma” və qorxuya qarşı edilən bəzi praktikalarda (odun, köz və s.) təhlükəsizlik riski ola bilər — praktikaların təhlükəsiz formada icrası vacibdir.

***Ayşən Vəli***



# Xəzər dənizinin ekoloji böhranı: səbəblər və nəticələr

***Qlobal iqlim dəyişiklikləri, quraqlıq, ekoloji çirklənmə və su böhranı Xəzər regionuna da təhdidlər yaradır. Xəzər dənizinin səviyyəsinin davamlı enməsi və tempraturun artması düzən və səhra şəraitinin üstünlük təşkil etdiyi Xəzərin şərq sahillərində daha çox müşahidə olunur. Dənizin çirklənməsi də elə əsasən o istiqamətdən formalaşır.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Keçən ayın sonu Astana ekologi konfransda bu məsələlər müzakirə olundu. Sentyabrın 24-də BMT Baş Assambleyasında çıxışı zamanı Qazaxıstan prezidenti Qasım-Jomart Tokayev bəyan edib ki, Alatau dağlarında buzlaqların əriməsi sürətləndiyi üçün Mərkəzi Asiya qlobal orta göstəricidən 2 dəfə sürətlə istiləşir, bu da milyonlarla insan üçün su və ərzaq təhlükəsizliyi üçün təhlükələri xeyli artırır.

Vəziyyətin getdikcə təhlükəli hala gəldiyini görən Qazaxstan ekoloji məsələlərdə aktiv siyasət yürüdür. Beynəlxalq Aralın Xilas edilməsi Fondunun sədri olaraq bu sahədə fəal iş aparır və artıq dənizin şimal hissəsinin qorunub saxlanmasına nail olub. Eyni zamanda, Tokayev Xəzər dənizinin sürətlə quruması səbəbindən Mərkəzi Asiya regionundakı tərəfdaşlarla və bütün beynəlxalq ictimaiyyətlə birlikdə Xəzərin su ehtiyatlarının qorunması üçün təcili tədbirlər görməyə çağırır.

Mövcud vəziyyətə nəzər saldıqda Mərkəzi Asiya ekspertləri hesab edirlər ki, Qərb ölkələrinin ekoloji standartlar və davamlı inkişafa sadiqlik barədə yüksək səslə bəyan etmələrinə baxmayaraq, praktikada bütün Xəzər regionu artan ekoloji fəlakətlə üz-üzədir, bu prosesdə əsas rol oynayan da əsasən elə o ölkələrə məxsus transmilli şirkətlərdir, onların fəaliyyəti ciddi ekoloji nəticələrlə müşayiət olunur.

Bu ilin avqustunda Astanada keçirilən "Xəzər ekologiyası: çağırışlar və həll yolları" konfransı zamanı "Xəzərdə şəffaf dünya" layihəsinin koordinatoru Andrey Balaqurov həyəcanverici məlumatlar paylaşıb. Onun sözlərinə görə, 2022-ci ildən bəri peyklər dənizə 450-dən çox şübhəli neft dağılması qeydə alıb, amma onların heç biri Qazaxıstanda rəsmi olaraq çirklənmə kimi tanınmayıb. Eyni zamanda, Qazaxstan ekologiya nazirinin müavini Comart Əliyev ehtimal edir ki, ekofəallar məlumatları neft ləkələri, bulud kölgələri və ya digər atmosfer hadisələri ilə səhv salaraq yanlış şərh etmişlər.

2023-cü ildə, Atırau bölgəsindəki Kaşaqan yaxınlığında böyük bir sürüşmə zamanı baş vermiş ən təəccüblü hadisələrdən birini xatırlamaq kifayətdir. Rusiya Elmlər Akademiyasının Okeanologiya İnstitutunun mütəxəssisləri çirklənmənin antropogen xarakterini təsdiqləyiblər. Lakin ölkənin ekologiya rəsmiləri bunun sadəcə olaraq dəniz dibindən qalxan lil olduğunu əsas gətirərək cavab verdilər.

"Xəzərdə Şəffaf Dünya" layihəsinin koordinatorunun qeyd etdiyi kimi, iki müstəqil təsvir,- biri radar və digəri optik,- buludsuz bir gündə böyük qaranlıq ləkəni göstərib. Buna görə də, alətlər tərəfindən qeydə alınan aşkar faktı inkar etmək tənzimləyici orqanlara inamı sarsıdır və vətəndaşları dəniz ekosisteminə real təhlükələr barədə qaranlıqda qoyur.





"Bloomberg" agentliyi Qazaxıstanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoloji qaydaları pozduğuna görə Kaşaqan neft və qaz yatağının işlənməsini həyata keçirən "North Caspian Operating Company" şirkətindən 5,1 milyard dollar cərimə tələb etdiyini bildirib. Ekologiya Nazirliyinin Ətraf Mühitin Tənzimlənməsi və Nəzarəti Komitəsinin sosial şəbəkələrdəki rəsmi səhifəsində NCOC-un fəaliyyətində aşağıdakı pozuntuların müəyyən edildiyi bildirilib;

-"Boşak" neft-qaz emalı zavodunun anbar sahələrində kükürdün icazə verilən həddən artıq- 1 milyon tondan artıq saxlanması;

-İstifadə olunmuş qələvi regenerasiyası üçün müvəqqəti sulfat turşusu anbarının təsdiq edilmiş layihə sənədləri və ekoloji icazə olmadan istismar edilməsi

-ətraf mühitin mühafizəsi planının tam yerinə yetirilməməsi

-çirkab sularının adekvat təmizlənmədən buxarlanma hovuzuna axıdılması

-dövlət ekoloji ekspertizası hesabatının tələblərinə əməl edilməməsi

-ətraf mühitin mühafizəsi üzrə səlahiyyətli orqanın razılığı olmadan lil tutucunun məqsədinin dəyişdirilməsi;

-təmizlənməmiş xam qazın ekoloji icazə olmadan yandırılması;

-mənzil-kommunal obyektin buxarlanma çənlərində lazımi icazələr olmadan icazəsiz tullantılara yol verilməsi.

"North Caspian Operating Company" konsorsiumu ətraf mühitə dəyən zərərin ödənilməsinə alternativ olaraq, fərqli yanaşmaya qərar verib və Qazaxıstan hökumətinə 110 milyon dollarlıq sosial sərmayə müqabilində 5,1 milyard dollarlıq iddiasından imtina etməyi təklif edib ki, bu da ölkədə ictimai etiraza səbəb olub. Ölkə siyasətçiləri Qazaxıstana uzun müddət davam edən qanun pozuntularına görə kompensasiya əvəzinə simvolik məbləğ vəd edilməsindən hiddətləniblər və ekoloqlar qeyd ediblər ki, hökumət NCOC-un təklifini qəbul edərsə, bu, Qərb korporasiyalarının öz şərtlərini diktə etməsinin və ciddi məsuliyyətdən yayınmasının daha bir parlaq nümunəsini göstərəcək.

Qeyd edək ki, müxtəlif şirkətlər transmilli korporasiyalar üçün gəlirli hədəf olan Kaşaqan yatağına 50 milyard dollardan çox sərmayə qoyub və yatağın işlənməsi üzrə tərəfdaşlar arasında Shell Plc, Exxon Mobil Corp., Eni SpA, TotalEnergies SE, China National Petroleum Corp., və Inpex Corp. var.

Buna baxmayaraq, 2025-ci ilin avqustunda NCOC konsorsiumu apellyasiya məhkəməsinin "məsuliyyətlə və Qazaxıstan Respublikasının qanunlarına uyğun olaraq, eləcə də qüvvədə olan standartlara və qabaqcıl təcrübələrə uyğun olaraq həyata keçirilən NCOC-un kükürdün idarə edilməsi əməliyyatlarının düzgünlüyünü təsdiqləyən" qərarını alqışladı.

Beləliklə, qərbli iş adamları Kaşaqanın çirklənməsi ilə bağlı əks-iddialarını məhkəmədə sübut ediblər. Sanki ötən ilin oktyabrında "Kaşaqan" yatağı akvatoriyasında 300-ə yaxın suitinin ölümü heç baş verməyib. Həqiqətən də, "Kaşaqan"ın və digər dəniz yataqlarının işlənilməsi başlayandan bəri, demək olar ki, elə bir il olmayıb ki, Xəzər dənizində ixtiofaunanın ölümü ilə bağlı fövqəladə hadisə baş verməsin. 2000-ci ilin yazında Şərqi Kaşaqanda aktiv qazma işləri aparılarkən Xəzər suitilərinin kütləvi ölümü baş vermişdi. Mühafizəkar hesablamalara görə, bu heyvanların 10.000-dən çoxu təkcə Şimali Xəzərin sahillərində tələf olub.

Qərb konsorsiumunun ekoloji təhlükəsizliyə, milli maraqlara və Qazaxıstanın gələcəyinə ciddi zərbə vurması ölkədə ictimai etirazları və sosial narazılığı artırıb. Hökumət bu istiqamətdə fəaliyyətini gücləndirməyə məcbur olub.

İyulun 24-26-da Altay dağlarında (Rusiya) keçirilən beynəlxalq ekoloji konfrans zamanı Rusiyanın baş naziri Mixail Mişustin və qazaxıstanlı həmkarı Oljas Bektenov arasında ikitərəfli əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş görüş keçirilib. Tərəflər 2025-ci ildə transsərhəd Ural çayı hövzəsində "Jayk-Ural hövzəsi: Təmiz sahillər və mehriban qonşuluq" adlı birgə ekoloji kampaniya keçirmək barədə razılığa gəliblər. Proqrama elmi tədqiqatlar, tullantı sularının təmizlənməsi sistemlərinin yenidən qurulması, su anbarlarının balıqla təminatı və ekosistemin bərpası daxildir.

Ötən ilin yayında XI Nevski Beynəlxalq Ekoloji Konqresi çərçivəsində Azərbaycan, İran, Qazaxıstan, Türkmənistan və Rusiyanın müvafiq nazirlik və qurumlarının rəhbərlərinin iştirak etdiyi "Xəzər: gələcək naminə əməkdaşlıq" adlı sessiya keçirilib.

Bundan başqa, Xəzərdə əməkdaşlıq üçün hər cür şərait mövcuddur. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya (14 avqust 2018-ci il) Xəzəryanı dövlətlər arasında onun ehtiyatlarından səmərəli istifadə, habelə onun təbii mühitinin öyrənilməsi, mühafizəsi və mühafizəsi üzrə əməkdaşlığın inkişafına və möhkəmləndirilməsinə kömək edir.

Xəzəryanı dövlətlər ekoloji problemlərin mənfi təsirlərini minimuma endirmək üçün təxirəsalınmaz tədbirləri, həm də uzunmüddətli strategiyaları özündə birləşdirən kompleks yanaşma nəzərə alınmaqla, iqlim dəyişikliyinə uyğunlaşma, biomüxtəlifliyin qorunması və davamlı regional iqtisadiyyatın inkişafı üçün tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi zərurəti ilə üzləşirlər.

Əlbəttə, Xəzərdə problem təkcə çirklənmə deyil, hərçənd ki bu, dəniz adlandırılsa da faktiki göldür, okeana birbaşa çıxışı olmayan qapalı hövzədir və buraya axıdılan tullantılar digər dənizlərdə olduğu kimi dünya okeanına qarışaraq təmizlənmir. Və çaylarla hövzəyə axan su azalanda dünya okeanının səviyyəsi tənzimlənmir. Əsas problemlərdən biri də, dənizin suyunun formalaşdıran çayların suyundan sənaye, təsərrüfat və içməli su məqsədləri üçün hədsiz istifadə nəticəsində dənizə gələn su həcminin kəskin azalmasıdır. Son dövrlərdə Xəzərin ən böyük su təchizatçısı olan Volqa çayının suyundan həmin bölgədə salınmış böyük aqrar təsərrüfatların və sənaye müəssisələrinin ehtiyacları üçün istifadə edilməsi dənizə gələn su həcmini xeyli azaldır. Eləcə də Ural, Terek, Kür, Samur və digər çayların da suyu bu məqsədlərlə çox istifadə olunduğundan dənizə gələn su həcmi xeyli azalıb. Nəticədə dənizdə su səvizyyəsi sürətlə aşağı düşür.

Xəzər dənizinin qurumağa doğru getməsi bütün region üçün ekoloji fəlakətə çevrilə bilər. Aral dənizin nümunəsində bunu hamı görüb və bu səbəbdən dənizin qorunub saxlanması və ekosistemin pozulmasının qarşısının alınması ən vacib məsələ olaraq qarşıda dayanır.

***Elçin Bayramlı***

SƏS
18 oktyabr
2025-ci il

# Ronaldo 1000-ci qolu bu tarixdə vuracaq? - Proqnoz



*"Sky Sports" telekanalı portuqaliyalı hücumçu Kriştiano Ronaldonun peşəkar karyerasında 1000-ci qolunu nə zaman vura biləcəyini proqnozlaşdırıb. QOL.az xəbər verir ki, analiz futbolçunun klub və milli səviyyəsində vurduğu qolların sürəti əsasında aparılıb. Hazırda Kriştiano Ronaldonun aktivində 948 qol var. Son iki qolu isə o, 2026-cı il dünya çempionatının seçmə mərhələsində Macarıstana qarşı keçirilən oyunda (2:2) vurub. Proqnoz hazırlanarkən 40 yaşlı hücumçunun klub və yığma heyətində çıxış edə biləcəyi oyunların sayı nəzərə alınıb.*

Mənbənin məlumatına görə, Kriştiano Ronaldo peşəkar karyerasında 1000-ci qolunu 2026-cı ilin oktyabr ayında vuracaq. Ümumilikdə isə gələn ilin sonuna qədər portuqaliyalı futbolçu karyerası ərzində vurduğu qolların sayını 1008-ə çatdıracaq. Hazırkı mövsümdə Ronaldonun klub səviyyəsində altı oyunda beş qolu var.

# Yasamalda keçmiş məhkumların güllələnməsinə görə 2 nəfər saxlandı

*Yasamal rayonunda ötən gün baş verən silahlı insidentlə bağlı iki nəfər polis əməkdaşları tərəfindən saxlanılıb. DİN-in Mətbuat Xidmətindən bildirilib ki, oktyabrın 16-da Yasamal rayonu ərazisində əvvəllər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məhkum olunmuş iki nəfərin odlu silahdan açılan atəş nəticəsində xəsarət alması barədə polisə məlumat daxil olub.*



Polis əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən 36 yaşlı Elgün Cəbrayılov 38 yaşlı Rüfət Həziyev saxlanılıb. Həmin şəxslərdən 1 ədəd "Makarov" markalı tapança, 5 ədəd patron və narkotik vasitələr aşkar edilərək götürülüb. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Soyuqdəymədə effektivdir: dərman, yoxsa nanəli konfetlər?



***Böyük Britaniyanın Kardiff Universitetində aparılan araşdırma zamanı nanəli konfetlər soyuqdəymə zamanı ayıqlığı artırır və əhvali-ruhiyyəni yaxşılaşdırdığı aşkar olunub.***

Milli.Az xəbər verir ki, təcrübədə 81 tələbə iştirak edib və onlara nanəli, nanəsiz konfetlər və ya heç nə verilməyib. Nəticədə, nanənin aromatik təsiri sayəsində diqqət və reaksiyalar normala yaxınlaşıb.

Alimlər bildirir ki, mentol və digər aromatik maddələr beyinə təsir edərək yorğunluq hissini azaldır və enerji verir.

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Moped sürənlər, bu xəbəri mütləq oxuyun!

*Azərbaycanda moped idarə etmək üçün sürücülük vəsiqəsinin tələb olunması nəzərdə tutulur. SİA xəbər verir ki, bu məsələ Milli Məclisin oktyabrın 17-də keçirilən plenar iclasının gündəliyinə daxil edilmiş "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsində öz əksini tapıb.*



Qanun layihəsinin əsas məqsədi moped nəqliyyat vasitələrinin istismarına dair tənzimləmələrin təkmilləşdirilməsi, sürücülərin bilik və bacarıqlarının artırılması və ümumilikdə yol hərəkəti təhlükəsizliyinin yüksəldilməsidir. Belə ki, sənəddə təklif edilən mühüm dəyişikliklərdən biri moped idarə etmək üçün sürücülük vəsiqəsinin alınmasının tələb olunmasıdır. Bu dəyişiklik sürücülərin müəyyən bilik və bacarıqlara malik olmalarını təmin edəcək və nəticə etibarilə yol hərəkəti təhlükəsizliyini artıracaq.

Digər təkliflərə görə isə moped nəqliyyat vasitəsinin anlayışının daha dəqiq müəyyən edilməsi, mopedlərin dövlət qeydiyyatına alınaraq uçota götürülməsi nəzərdə tutulur. Həmçinin qanun layihəsində mopedlər üçün əvvəllər mövcud olan yalnız yolun sağ kənar zolağı ilə hərəkət etmək tələbinin aradan qaldırılması planlaşdırılır. Eyni zamanda, həmin qanun layihəsində motosikletin və mopedin uzunu və ya eni üzrə qabaritlərindən 0,5 metrdən artıq kənara çıxan və ya motosikleti, mopedi idarə etməyə mane olan yük aparmaq qadağan edilir.

## ELAN

Bakı Texniki Kollec tərəfindən Məmmədov Mirzəbala Əlibala oğluna verilmiş tələbə bileti itirildiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3000